**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "AZƏRBAYCANDA MİKRO, KİÇİK VƏ ORTA SAHİBKARLIQ SUBYEKTLƏRİNİN MÖVCUD VƏZİYYƏTİNİN VƏ FƏALİYYƏT PERSPEKTİVLƏRİNİN TƏHLİLİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Qurbanzadə Aytac Azər qızı**

**BAKI – 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**_________________________imza**

**"____" _______________ 20__-ci il**

# "AZƏRBAYCANDA MİKRO,KİÇİK VƏ ORTA SAHİBKARLIQ SUBYEKTLƏRİNİN MÖVCUD VƏZİYYƏTİNİN VƏ FƏALİYYƏT PERSPEKTİVLƏRİNİN TƏHLİLİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060406 "Statistika"**

**İxtisaslaşma: Müəssisələrin statistikası**

**Qrup: 704**

**Magistrant:**
**Qurbanzadə Aytac Azər qızı**
**_________________________ imza**

**Elmi rəhbər:**
**i.ü.f.d., m. Abbasov Ceyhun Abbas oğlu**
**_________________________ imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab qızı**
**_________________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof.Kəlbiyev Yaşar Atakişi oğlu**
**_________________________ imza**

**BAKI – 2021**

## Elm andı

Mən, Qurbanzadə Aytac Azər qızı and içirəm ki, “Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq subyektlərinin mövcud vəziyyətinin və fəaliyyət perspektivlərinin təhlili” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

## AZƏRBAYCANDA MİKRO, KİÇİK VƏ ORTA SAHİBKARLIQ SUBYEKTLƏRİNİN MÖVCUD VƏZİYYƏTİNİN VƏ FƏALİYYƏT PERSPEKTİVLƏRİNİN TƏHLİLİ

## XÜLASƏ


**Tədqiqatın aktuallığı:Ölkəmizdə iqtisadi inkişafın davamlılığını təmin etmək üçün sahibkarlıq sahəsində idarəetmə daha da təkmilləşdirilməli, subyektlərin mövcud vəziyyəti üzrə problemlərin müəyyən olunması məqsədilə davamlı təhlillər aparılmalıdır. Bu da tədqiqat işinin aktual məsələyə toxunduğunu göstərir.**

**Tədqiqatın məqsədi:Tədqiqatın əsas məqsədi iqtisadiyyatın daha da inkişaf etdirilməsi yolunda sahibkarlıq subyektlərinin mövcud vəziyyətini statistik təhlil edərək bu fəaliyyətin səmərəliliyinin artırılması məqsədi ilə sahibkarlığın inkişaf perspektivlərini araşdırmaqdan ibarətdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Müxtəlif iqtisadi fəaliyyət növləri üzrəsahibkarlıq subyektləri tərəfindən yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyəri üzrə məlumatlar və qeyri-neft sektoru üzrə ÜDM istifadə olunaraq korrelyasiya asılılığı yoxlanmışdır.**

**Tədqiqatın informasiya bazası: Statistika Komitəsinin nəşrləri, Azərbaycan Mərkəzi Bankının nəşrləri, bir sıra qanunvericilik aktları və normativləri, Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri üzrə statistik məlumatlar toplanaraq tədqiqata daxil olunan statistik göstəricilərin informasiya bazasının əsasını təşkil etməkdədir.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqatın aparılması zamanı qarşıya çıxan ən əsas məhdudiyyətlərdən biri sahibkarlıq subyektləri ilə bağlı əvvəlki dövrə aid statistik məlumatların toplanılmasının mümkün olmaması ilə əlaqədardır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Kiçik sahibkarlığın hansı istiqamət üzrə inkişaf etdirilməsinin iqtisadi inkişafa daha çox töhfə verməsi araşdırılmış, tapılan sahələrin daha da inkişaf etməsi üçün dövlət tərəfindən görülməli tədbirlər əlavə edilmişdir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Qeyri-neft sektorunun inkişaf etdirilməsi ölkənin neft sektorundan asılılığının qarşısının alınmasına, iqtisadiyyatın diversifikasiyasına əhəmiyyətli dərəcədə təsir edir ki , bunun üçün sahibkarlıq subyektlərinin fəaliyyəti prioritet amildir. Pandemiya sonrası ölkə iqtisadiyyatının bərpasında həmçinin işğaldan azad olunmuş torpaqlarda həyata keçiriləcək quruculuq işlərinə sahibkarlığın cəlb olunması atılmalı əsas addımlardandır.**



***Açar sözlər: qeyri-neft, sahibkarlıq, inkişaf, diversifikasiya, kiçik müəssisələr, iqtisadi artım, asılılıq***

**ANALYSIS OF THE CURRENT SITUATION AND PERSPECTIVES OF MICRO, SMALL AND MEDIUM ENTREPRENEURS IN AZERBAIJAN**

**SUMMARY**

**The actuality of the subject: In order to ensure the sustainability of economic development in the management of small and medium enterprises should be improved, continuous analysis should be conducted to identify problems in the current situation of entities. This shows that the research is on a actual issue.**

**Purpose and tasks of the research: The main purpose of the research is to analyze the current situation of micro, small and medium enterprises in the development of the economy of the Republic of Azerbaijan.**

**Used research methods: The study examined the correlation betweenmicro, small and medium enterprises and GDP in the non-oil sector for various types of economic activity.**

**The information base of the research: Publications of the State Statistics Committee of Azerbaijan, the Central Bank of Azerbaijan, as well as a number of Legislative acts and norms make up information base of the research.**

**Restrictions of research: One of the main limitations of the research is the impossibility of collecting statistical data on business entities for the previous period. One of the important conditions for a more complete and accurate research is that the statistics cover of wider period. The novelty and practical results of investigation:The direction in which the development of small business contributes to economic development was examined**

**Scientific-practical significance of results: The development of the non-oil sector affects the diversification of the economy, which is a priority for the activities of business entities. Increasing entrepreneurship in construction of liberated lands is one of the key steps in the post-pandemic recovery of the country's economy.**

***Keywords: non-oil, entrepreneurship, development, diversification, small businesses, economic growth, dependence, entity***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **KOS** | Kiçik və Orta Sahibkarlıq |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

## MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| | **GİRİŞ......................................................................................** | **8** |
| **I FƏSİL.** | **MÜASİR DÜNYA İQTİSADİYYATİNDA SAHİBKARLİQ FƏALİYYƏTİNİN İQTİSADİ MAHİYYƏTİ VƏ FUNKSİYALARİ...........................................................................** | **13** |
| 1.1. | Sahibkarlıq fəaliyyətinin nəzəri xüsusiyyətləri və inkişaf yolu...................................................................................... | 13 |
| 1.2. | Mikro,kiçik və orta sahibkarlığın müasir ölkə iqtisadiyyatının inkişafındakı rolu və əhəmiyyəti................................................... | 24 |
| **II FƏSİL.** | **AZƏRBAYCANDA KİÇİK SAHİBKARLIĞIN İNKİŞAF VƏZİYYƏTİNİN TƏDQİQİ VƏ QİYMƏTLƏN-DİRİLMƏSİ.......................................................................................** | **34** |
| 2.1. | Ölkə iqtisadiyyatının diversifikasiyasında və qeyri-neft sektorunun inkişafında sahibkarlıq fəaliyyətinin mühüm yeri......... | 34 |
| 2.2. | Azərbaycandasahibkarlıq subyektlərinin təhlili və inkişaf perspektivləri.......................................................................... | 40 |
| 2.3. | Azərbaycanda kiçik müəssisələrin inkişafı və böyüməsi ilə bağlı məhdudiyyətlər........................................................................... | 48 |
| **III FƏSIL.** | **AZƏRBAYCANDASAHİBKARLIQ FƏALİYYƏTİNİN STATİSTİK QİYMƏTLƏNDİRİLMƏSİ………..........................** | **56** |
| 3.1. | Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makro-iqtisadi göstəricilərinin statistik təhlili............................................ | 56 |
| 3.2. | Sahibkarlıq subyektlərinindövlət tərəfindən dəstəklənməsinin əsas istiqamətləri........................................................................ | 60 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR........................................................** | **66** |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATSİYAHISI .......................** | **68** |
| | **ƏLAVƏLƏR**......................................................................... | 71 |
| | Cədvəllərin siyahısı.................................................................... | 73 |
| | Qrafiklərin siyahısı.................................................................. | 73 |
| | Diaqramların siyahısı................................................................. | 73 |

# GİRİŞ

**Mövzunun aktuallığı:** Mikro,kiçik və orta sahibkarlıq subyektlərinin məşğulluğun artırılması, iqtisadiyyatın diversifikasiyası,yerli istehsalın gücləndirilməsi,ticarət balansında ixracın payının yüksəldilməsi və iqtisadi inkişafın davamlılığının təmin olunmasına töhfəsi onun ölkə iqtisadiyyatının inkişafında oynadığı mühüm rolu səciyyələndirir. Sahibkarlıq subyektləriölkələrin iqtisadiyyatında mühüm iqtisadi amillərdən biri olmaqla məhsul və əmlakın daha ədalətli paylanması üçün şərait yaradır,həm də cəmiyyətin müxtəlif təbəqələri arasında gəlir və sərvət bərabərsizliyini azaltmağa kömək edir. Sahibkarlıq fəaliyyətiistehsalın inkişafı,kapitalın artırılması,yeni iş yerlərinin yaradılması, istehsalın inkişafı, mənfəətin artırılması,əhalinin sosial rifahının yaxşılaşdırılmasıvə bazarda sağlam rəqabət mühitinin formalaşmasında mühümrol oynayır.Ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi, valyuta mövqeyinin möhkəmləndirilməsi, iqtisadiyyatın diversifikasıyasının gücləndirilməsi baxımından kiçik müəssisələrin oynadığı rol şübhəsiz ki, çox mühüm önəm kəsb edir. Bu baxımdan sahibkarlıq fəaliyyətinin müasir vəziyyəti, iqtisadi inkişaf meyarları eləcə də, onun iqtisadi artımda oynadığı rol mövzunun aktuallığını təşkil edir.

Bazar iqtisadiyyatına keçid etdikdən sonra sahibkarlıq subyektləriiqtisadi və sosial tərəqqinin inkişafı, beynəlxalq iqtisadiyyata inteqrasiya prosesi,iqtisadi artım, əhalinin məhsul tələbatının ödənilməsi, cəmiyyətin müxtəlif təbəqələri arasında gəlir və sərvət bərabərsizliyini azaldılması, məhsul və əmlakın daha ədalətli paylanması,iş və xidmətlərin yerinə yetirilməsi, ölkə əhalisinin gəlirlərinin artırılması və işsizliyin azaldılmasına əlverişli şərait yaratmışdır.

Deməli ölkəmizdə iqtisadi inkişafın davamlılığını təmin etmək üçün kiçik və orta sahibkarlıq sahəsində idarəetmədaha da təkmilləşdirilməli,subyektlərin mövcud vəziyyəti üzrə problemlərin müəyyən olunması məqsədilə davamlı təhlillər aparılmalıdır.Bu da tədqiqat işinin aktual məsələyə toxunduğunu göstərir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Sahibkarlıq subyektlərinin fəaliyyəti uzun müddətdir ki,istər yerli,istərsə də xarici tədqiqatçılar tərəfindən araşdırılmış, onların inkişafperspektivləri,üzləşdiyi məhdudiyyət və problemlər, iqtisadiyyata verdiyi töhfələrlə bağlı təklif və tövsiyələr irəli sürülmüşdür. Lakin,bu elmi tədqiqatların təhlili göstərir ki,kiçik müəssisələrin fəaliyyəti və mövqeyi müxtəlif aspektlərdən araşdırılsa dasosial iqtisadi əlaqələr zaman zaman daha da inkişaf etdikcə bu fəaliyyətin davamlı tədqiq olunmasına ehtiyac vardır.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın əsas məqsədiAzərbaycan Respublikasıiqtisadiyyatının daha da inkişaf etdirilməsi yolunda mikro, kiçik və orta sahibkarlıq subyektlərinin mövcud vəziyyətini statistik təhlil edərəkbu fəaliyyətin səmərəliliyinin artırılması məqsədi ilə sahibkarlığın inkişaf perspektivlərini araşdırmaqdan ibarətdir. Bu məqsədlərə nail olmaq istiqamətində təkmilləşdirilməsi zəruri olan problemləri və görülmüş tədbirləri təhlil edərək aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur.

- Sahibkarlıq subyektlərinin milli iqtisadiyyatda rolu, əhəmiyyəti və inkişaf meyarlarının təyin olunması;
- Bazar iqtisadiyyatı şəraitində ölkəmizdə sahibkarlığın inkişaf perspektivlərinin aşkarlanması;
- Respublika səviyyəsində sahibkarlıq kiçik müəssisələrin üzləşdiyi limit və məhdudiyyətlərin müəyyənləşdirilməsi;
- Qeyri-neft sektorunun inkişafında sahibkarlığın rolunun statistik qiymətləndirilməsi;
- Iqtisadiyyatın diversifikasiyasında sahibkarlığın əhəmiyyətinin statistik tədqiq edilməsi və dayanıqlı inkişafın təmin olunması üzrə təkliflərin irəli sürülməsi;

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqat işində asılılıqların aşkar edilməsi, nəticələrin təhlili və şərh olunması üçün korrelyasiya asılılığından istifadə

olunmuşdur. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ölkə iqtisadiyyatında rolunu ölçərkən sahibkarlıq subyektlərinin payı və ölkənin iqtisadi inkişafını səciyyələndirən əsas makro-iqtisadi göstəricilərdən istifadə olunmuşdur. Sahibkarlıq subyektlərinin göstəricilərinin davranışı və qiymətinə təsir edən əhəmiyyətli faktorların aşkar edilməsi və onların iqtisadi sistemin modelində əks etdirilməsi situasiyanın statistik təhlili, proqnozlaşdırılması və nəticələndirilməsi təqdiqatı nəzəri-metodoloji əsaslandırır.

**Tədqiqat metodları:** Tədqiqat işində 2010-2020-ci il üzrə müxtəlif iqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyəri üzrə məlumatlar və qeyri-neft sektoru üzrə ÜDM istifadə olunaraq korrelyasiya asılılığı yoxlanmışdır. İllik statistik göstəricilərə əsasənÜDM-dəki variasiyaya ümumi iqtisadi vəziyyətin və qiymət səviyyəsindəki dəyişikliklərin də təsir etdiyini nəzərə alaraq nominal ifadə olunmuş göstəricilərin real göstəricilərə çevrilməsi vacibdir.

Tədqiqatın əsas məqsədi müxtəlif iqtisadi fəaliyyət növləri (kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq,sənaye, mədənçıxarma sənayesi, emal sənayesi, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, su təchizatı; tullantıların təmizlənməsi və emalı, tikinti, ticarət; nəqliyyat vasitələrinin təmiri, nəqliyyat və anbar təsərrüfatı, turistlərin yerləşdirilməsi və ictimai iaşə, informasiya və rabitə, daşınmaz əmlakla əlaqədar əməliyyatlar, təhsil, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi) üzrə statistik göstəriciləri ilə qeyri-neft sektoru üzrə ÜDM arasındakı əlaqəni qiymətləndiribsahibkarlığın hansı sahəsinin iqtisadi inkişafa daha çoxtəkan verdiyini müəyyən etməkdir.Tədqiqatın üçüncü fəsilində qeyd edilən reqressiya modelinin nəticələri təhlil edilərək sahibkarlıq subyektlərinin inkişaf perspektivləri müəyyən edilir, eyni zamanda müəssisələrin inkişafı və böyüməsi ilə bağlı məhdudiyyətlər üzrə qiymətləndirmə aparılır.

**Tədqiqatın informasiya bazası:** Azərbaycanda kiçik və orta sahibkarlıq haqqında dövri nəşrlər, Azərbaycan Dövlət Statistika Komitəsinin nəşrləri,

Azərbaycan Mərkəzi Bankının nəşrləri, kiçik və orta sahibkarlıq fəaliyyətinin idarə edilməsinə dair dərslik və dərs vəsaitləri, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin elektron informasiya portalı, eləcə də sahibkarlığa aid Azərbaycan Respublikasının bir sıra qanunvericilik aktları və normativləri, Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri üzrə statistik məlumatlar toplanaraq tədqiqatın reqressiya modelinə daxil olunan statistik göstəricilərin informasiya bazasının əsasını təşkil etməkdədir. Bundan əlavə son zamanlarda çap olunmuş elmi məqalələrdənvə yeni aparılmış tədqiqatlardan xarici məqalələrdən istifadə olunmuş və təhlil qismində ekonometrik vəstatistik mənbələrdən də faydalanılmışdır. Bundan əlavə son zamanlarda sahibkarlıq mövzusunda çap olunmuş xarici və yerli elmi məqalələr ve aparılmış tədqiqatların metodları öyrənilərək tədqiqatda istifadə edilmişdir.

**Tədqiqatın mədudiyyətləri:** Tədqiqatın aparılması zamanı qarşıya çıxan ən əsas məhdudiyyətlərdən biri sahibkarlıq subyektləri ilə bağlı əvvəlki dövrə aid statistik məlumatların toplanılmasının mümkün olmaması ilə əlaqədardır. Qiymətləndirmənin daha dolğun və düzgünnəticələnməsi üçün statistik göstəricilərin daha geniş dövrü əhatə etməsi vacib şərtlərdəndir. Bununla yanaşımüəssisə və təşkilatlarla bağlı tədqiqatda istifadə olunmalı bəzi informasiya və məlumatların qapalı olması da mövzu üzrə daha dərin və dəqiq tədqiqatların aparılmasına əngəl yaradır.

**Tədqiqatın elmi yeniliyi:** Mikro, kiçik və orta sahibkarlığın iqtisadiyyatda rolu onun formalaşma qanunauyğunluqları ölkədə onun cari vəziyyəti və inkişafı perspektivləri və problemləri araşdırılmış mühüm nəticələr əldə olunmuş təkliflər irəli sürülmüşdür. Kiçik sahibkarlığın hansı istiqamət üzrə inkişaf etdirilməsinin iqtisadi inkişafa daha çox töhfə verməsi araşdırılmış, tapılan sahələrin daha da inkişaf etməsi üçün dövlət tərəfindən görülməli tədbirlər əlavə edilmişdir. Qiymətləndirmənin nəticəsi onu sübut edir ki, ticarət, nəqliyyat vasitələrinin təmiri; nəqliyyat və anbar təsərrüfatı; turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə kiçik sahibkarlıq subyektlərinin qeyri-neft sektoruna təsiri zəif olsa da kənd təsərrüfatı,

meşə təsərrüfatı və balıqçılıq; emal sənayesi; tikinti; informasiya və rabitə; daşınmaz əmlakla əlaqədar əməliyyatlar; təhsil; əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi üzrə kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsi qeyri-neft sektorunun inkişafına daha çox təkan verə bilər.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Aparılan tədqiqat nəticəsində sübut olunmuşdur ki, ölkə iqtisadiyyatının inkişafında sahibkarlıq fəaliyyətinin genişləndirilməsi mühüm rol oynayır. Qeyri-neft sektorunun inkişaf etdirilməsi ölkənin neft sektorundan asılılığının qarşısının alınmasına, iqtisadiyyatın diversifikasiyasına əhəmiyyətli dərəcədə təsir edir ki , bunun üçün sahibkarlıq subyektlərinin fəaliyyəti prioritet amildir. Pandemiya sonrası ölkə iqtisadiyyatının bərpasında həmçinin işğaldan azad olunmuş torpaqlarda həyata keçiriləcək quruculuq işlərinə sahibkarlığın cəlb olunması atılmalı əsas addımlardandır.

# I FƏSİL. MÜASİR DÜNYA İQTİSADİYYATINDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN İQTİSADİ MAHİYYƏTİ VƏ FUNKSİYALARI

## 1.1. Sahibkarliq fəaliyyətinin nəzəri xüsusiyyətləri və inkişaf yolu

Sahibkarlıq qloballaşan dünya iqtisadiyyatında yenilik, dəyişiklik və rəqabət mənbəyidir.Texnoloji dəyişikliklər, qloballaşma və iqtisadi liberallaşmanın gətirdiyi qlobal rəqabətin artması ilə sahibkarlığın inkişaf etdirilməsinin bugün ölkənin rəqabət qabiliyyətinin artırılması baxımından hər zamankindən daha zəruri olduğu görünür. İnkişaf etmiş ölkələrin rəqabət qabiliyyətinin təmin edilməsində əsas element kimi iştirak edən sahibkarlıq, inkişaf etməkdə olan ölkələr üçün beynəlxalq bazarlarda rəqabətə davamlı olmaq üçün daha da vacibdir. Bununla birlikdə, ən vacib cəhətlərdən biri, sahibkarlığın bazara yeni məhsullar və fikirlər gətirməyə kömək etməsidir. Sahibkarların yaradıcı fikirləri olmasaydı, dünyamız mədəniyyət, elm və texnologiya sahələrində bugünkü qədər inkişaf etmiş olmazdı.

Sahibkar – yeni müəssisənin yaradılması, cəmiyyətə təklif olunan yeni ideyanın, məhsulun və ya xidmətin işlənib hazırlanması ilə bağlı riski öz üzərinə götürən şəxsdir. Sahibkar xeyir götürmək məqsədilə istehsal amillərini hərəkətə gətirən və ya bu fəaliyyəti təşkil edən iqtisadi subyekdir. O, yəni mülkiyyətçi sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün sahibkarlıq qabiliyyətinə malik olmalıdır.

Sahibkarlıq subyektlərini səciyyələndirən ən əsas arqumentlərdən biri də onun azadlığa və tam iqtisadi müstəqilliyə sahib olmağıdır. Daha doğrusu,azadlıq və iqtisadi müstəqillik bütövlükdə sahibkarlığın inkişafını səciyyələndirən başlıca arqument sayılır. Yəni ki istənilən bir fərdivə yaxud da fərdlər qrupunu məcburi olaraq sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa vadar etmək əslində mümkünsüzdür və buhəmçinin qanunvericilikdə də qadağan edilmişdir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan hər bir fərdin azadlığına və iqtisadi müstəqilliyinə toxunduqda bu nəticədə toplumda iqtisadi artıma və iqtisadi inkişafa mənfi təsir göstərir və bütün

bunlar da son nəticədə bu və ya digər şəkildə daxili bazarda məhsul qıtlığına səbəb olmaqla yanaşı, cəmiyyət üzvlərinin tələbatının ödənilməsində problemlər yaradır.

Sahibkarlıq fəaliyyəti müştərilər üçün dəyər, investorlar üçün mənfəət, cəmiyyət üçün yenilik və dəyişiklik mənbəyidir. Eyni zamanda risk və qeyri-müəyyənliklərlə əlaqəli olub, ehtiyacları müəyyənləşdirmək, resursları səfərbər etmək və istehsalın təşkili istiqamətində sistematik, məqsədyönlü və yaradıcıfəaliyyət göstərmək sahibkarlığı səciyyələndirir. Sahibkarlığı uğurla idarə etmək üçün bu fəaliyyətdə pay sahibi olan hər bir element koordinasiya və idarə edilməlidir.Bazar şərtləri, gözləntilər və qanuni məhdudiyyətlər sahibkar davranışlarına təsir göstərə bilər.Müxtəlif alternativ mənbələrin, mürəkkəb istehsal prosesinin, intensiv texnoloji inkişafın mövcud olduğu bazarların sahibkarlığa yüksək potensialı və ehtiyacı var.

Bəşəriyyət tərəfindən bilinən ən güclü iqtisadi qüvvələrdən biri olan sahibkar başqalarının həll edə bilmədiyi problemləri fürsətə çevirən fərddir.Sahibkarlıq işgüzarlığın və nailiyyətin simvoludur; cəmiyyətin hər tərəfindəki həyati bir dəyişiklik mənbəyidir. O, mövcud bir təşkilat daxilində və ya xaricində yaradılış, risk alma, yenilənmə və ya yenilik anlayışlarını əhatə edir.

Sahibkar öz fəaliyyətini təmin etməklə yanaşı,digər iqtisadi fəaliyyətlər üçün, məsələn, məşğulluq və istehsal fürsətlərinin yaradılması və genişləndirilməsində mühüm dərəcədə məsuliyyət daşıyır. Bundan əlavə, hər bir müəssisə digər müəssisələrə - xammal və komponent tədarükçülərinə, xidmət təminatçılarına (nəqliyyat, kuryer, telekom, distribyutor vasitəçilər və reklam firmaları, mühasibat firmaları və vəkillər və s.) əlavə dəyər yaradılmasında köməkçi olur və bununla da sahibkarlıq bir millətin ümumi iqtisadi inkişafı üçün çox vacibdir.“Yeni imkanlar” üçün bazar olmadığına görə sahibkar bunlardan istifadə etməli, yəni mənbələri əldə etmək imkanlarını inkişaf etdirməli, eyni zamanda yenilikləri istismar etməlidir.

Sahibkarlıq fərdi şəxslərin təkbaşına və ya birlikdə əməkdaşlıq edərək maliyyə imkanlarını müəyyənləşdirdikləri və yeni müəssisələr yaradaraq onlardan istifadə etdikləri dinamik, sosial bir prosesdir.

Sahibkarlıq fərdi şəxslərin təkbaşına və ya birlikdə əməkdaşlıq edərək yenilik üçün fürsətləri müəyyənləşdirdikləri və fikirləri sosial, mədəni və ya maliyyə kontekstində praktiki hədəf fəaliyyətlərə çevirərək hərəkət etdikləri dinamik, sosial bir prosesdir.

Aşağıdakılar sahibkarlığın bəzi göstəricilərindəndir:

- Fərdlər üzərində təsir göstərir.
- Maliyyə imkanları təqdim edir.
- Bir cəmiyyətin iqtisadi rifahına təsir göstərir.
- Yenilik tələb edir.
- Dinamikdir.

Sahibkar aşağıdakıları bacarmalıdır:

- İş imkanlarını müəyyənləşdirmək - Bu o deməkdir ki, həqiqi bir iş fürsəti olmalıdır.
- Yenilikçi və yaradıcı olmaq - Hədəf auditoriyası üçün lazımlı yeni və fərqli bir şey tələb olunur.
- Resurslar toplamaq - Sərmayə, işçi qüvvəsi və iş avadanlığı tapılmalıdır.
- Bir iş yaradın və böyütmək - Bu yeni bir işin başlanğıcı və ya mövcud bir işin çevrilməsi deməkdir.
- Risk götürmək - Həm şəxsi, həm də maliyyə riskləri nəzərdə tutulur.
- Mükafatlar yaratmaq - Mükafat mənfəət və ya işin artan dəyəri şəklində ola bilər.
- Bir işi idarə etmək - Bu o deməkdir ki, bütün funksiyaların planlaşdırılması, təşkili, rəhbərliyi və nəzarəti olmalıdır.

Sahibkarlıq bütövlükdə yeni bazarlar, yeni sənaye sahələri, yeni texnologiya, yeni institusional formalar, yeni iş yerləri və real məhsuldarlıqda xalis artımlar

yaratmaqla cəmiyyətin sosial sərvətinə töhfə verir. Sahibkarlığın yaratdığı iş yerləri öz növbəsində gəlirin ədalətli bölüşdürülməsinə gətirib çıxarır ki, bu da əhalinin daha yüksək yaşayış standartları ilə nəticələnir. Bu şəkildə hökumət üçün mövcud olan qaynaqlar da artır, vergi bazası böyüyür. Əlavə vergilər hökumətlərə xəstəxana və məktəblər kimi sosial xidmətləri yaxşılaşdırmağa, infrastrukturu inkişaf etdirməyə və asayişi təmin etməyə imkan verir.

Azərbaycandan fərqli olaraq, Avropadakı KOS-ların təsnifatı müxtəlif cəhətlərinə görə fərqlənir. Məsələn, Avropada KOS-lar işçilərin sayı, illik dövriyyə və ümumi balans kimi göstəricilərin köməyi ilə müəyyən edilir.

Bir sözlə, sahibkarlıq fəaliyyətlərindən sərvət yaratmaqla yanaşı, həm iş yerləri, həm də çiçəklənən cəmiyyət üçün şərait yaradırlar.

Sahibkarlıq kapitalı "bölgənin yeni müəssisələrin yaradılmasına kömək edən amillərlə təmin edilməsi" olaraq təyin edilir və bölgənin iqtisadi məhsuluna müsbət təsir göstərir.

Sahibkarlıq kapitalı daha yüksək olan bölgələr daha yüksək məhsul və məhsuldarlıq göstərir, sahibkarlıq kapitalı olmayan ölkələr isə daha aşağı məhsul və məhsuldarlıq yaratma meylinə malikdirlər.

Sahibkarlıq kapitalının təsiri bilik kapitalından daha güclüdür. Dəlillər sahibkarlıq kapitalının təqdim olunan istehsal funksiyası modelində çox vacib bir rol oynadığını göstərir.

Aşağıdakılar sahibkarlıq kapitalının iqtisadiyyat üçün vacib olmasının bəzi səbəbləridir:

1. Sahibkarlar yeni müəssisələr yaradırlar

Sahibkarlar tərəfindən yeni mal və xidmətlər şəklində təqdim olunan təkliflər, iqtisadiyyatda təsadüfi bir təsir yarada biləcək yeni məşğulluqla nəticələnir. Əlaqəli müəssisələrin və ya yeniliyi dəstəkləyən sektorların stimullaşdırılması daha da iqtisadi inkişafa səbəb olur.

2. Sahibkarlar milli gəliri artırırlar

Sahibkarlıq sözün əsl mənasında yeni sərvət yaradır. Mövcud müəssisələr mövcud bazarların əhatəsi ilə məhdudlaşa bilər Sahibkarlardan gələn yeni və təkmilləşdirilmiş təkliflər, məhsullar və ya texnologiyalar yeni bazarların inkişafına və yeni sərvət yaradılmasına imkan verir.

Əlavə olaraq artan məşğulluq və daha yüksək qazancın təsadüfi təsiri, daha yüksək vergi gəliri və daha yüksək dövlət xərcləri şəklində daha yaxşı milli gəlirə kömək edir. Bu gəlir hökumət tərəfindən müxtəlif sektorlara və insan kapitalına investisiya qoymaq üçün istifadə edilə bilər.

3. Sahibkarlar sosial dəyişiklik yaradırlar

Yeni mal və xidmətlər təklifləri sayəsində sahibkarlar ənənədən ayrılır və dolayı yolla köhnəlmiş sistem və texnologiyalardan asılılığı azaldır. Ümumiyyətlə, bu, inkişaf etmiş bir həyat keyfiyyəti  ilə nəticələnir.

Nümunə olaraq, ağıllı telefonlar və onların ağıllı tətbiqləri dünya miqyasında işlərdə və oyunlarda inqilab yaratdı. Ağıllı telefon bazarının və smartfon sənayesinin böyüməsindən göründüyü kimi, texnoloji sahibkarlığın bütün insan irqi üzərində uzunmüddətli təsirləri olacaqdır.

Üstəlik, texnologiyanın qloballaşması o deməkdir ki, az inkişaf etmiş ölkələrdə sahibkarlar daha zəngin ölkələrdəki həmkarları ilə eyni vasitələrdən istifadə edə bilərlər. Həm də daha aşağı bir yaşayış xərcinin üstünlüyünə sahibdirlər, buna görə inkişaf etməmiş bir ölkədən olan gənc fərdi bir sahibkar, inkişaf etmiş bir ölkədən mövcud olan milyonlarla dollarlıq məhsulun gücünü ala bilər.

4. İcma İnkişafı

Sahibkarlar mütəmadi olaraq digər həmfikir şəxslər tərəfindən fəaliyyətlərini inkişaf etdirirlər. Həm də icma layihələrinə sərmayə qoyurlar və yerli xeyriyyə təşkilatlarına maliyyə dəstəyi verirlər. Bu, öz işlərindən kənarda daha da inkişaf etməyə imkan verir.

Bill Gates kimi bəzi məşhur sahibkarlar, pullarını təhsildən ictimai səhiyyəyə qədər yaxşı məqsədləri maliyyələşdirməyə sərf edirlər.

Sahibkarlığın aşağıdakı üç funksional rolunu cəmləşdirə bilərik:

**Risk:** Sahibkarlıq fəaliyyətinin ən vacib və spesifik funksiyasıdır.Malların və xidmətlərin istehsalı həmişə gələcək tələblərlə əlaqəlidir. Gələcək tələb qeyri-müəyyən və gözlənilməzdir, çünki seçimlərdəki dəyişikliklər və ya istehlakçıların zövqü, qiymət quruluşu, pulun dəyəri, iqlim şəraiti və dövlət siyasətləri bir malın tələbinə təsir göstərən vacib amillərdəndir. Bütün bu amillər dəyişkəndir və gələcək tələbin dəqiq qiymətləndirilməsi çətin prosesdir. Bu və digər təsirlərdən dolayı sahibkarlar öz üzərlərinə risk götürürlər.

**İnnovasiya:**Sahibkar yeni məhsullar, məhsulun xərclərini azaltmaq üçün yeni üsullar, məhsulun dizaynında və ya funksiyasında yaxşılaşdırma, yeni bazarlar və ya sənayenin yeni təşkili yollarını tapmaq üçün yeni innovative yollardan istifadə edir. İnnovasiya ilə sahibkar mövcud mənbələri yeni və daha məhsuldar konfiqurasiyalarda birləşdirir.

**Davamlı axtarış:** Müəssisələr üçün bazar əsaslı fəaliyyətlərin nəzərdən keçirilməsi, qiymətləndirilməsi və davam etdirilməsi, davamlı yenidən nəzərdən keçirmə və adaptiv öyrənmə çağırışları, yeni mənfəət imkanlarının müəyyənləşməsi vacib prioritet funksiyalardandır (Carree and Thurik 2002).

Bununla birlikdə, sahibkarlığın iqtisadi inkişaf ilə əlaqələndirilməsi baxımından,iki əsas rolunu ayırmaq olar. Birincisi "bazara yeni giriş" lə, ikincisi ümumiyyətlə "yenilik" lə əlaqəlidir. İlkin olaraq, sahibkar bu işlərdə yeni innovasiyaolub olmadığına baxmayaraq özünün yeni biznesini təşkil və idarə etməyə başlayır. Başqa sözlə desək, bazara daxil olur. Sonradan sahibkarlıq iqtisadi həyatda növbətiyeni rol oynayır: Yenilikçi kimi sahibkar - ixtira və fikirləri iqtisadi cəhətdən səmərəli quruluşa çevirməklə fəaliyyətinə davam edir.

Onun fərqli perspektivləri var, məsələn:

- Mənfəətin artırılması;
- Kapitalın artırılmasına, istehsalın inkişafına və mənfəət əldə edilməsinə yönəlmiş tədbirlər;

- Müəssisələrin və cəmiyyətin mövcud həyat tərzlərindəki dəyişikliklərin xüsusi axtarışları və bu dəyişikliklərə daim diqqət yetirilməsi;
- İqtisadi artım tempinin, ümumi daxili məhsulun strukturu və keyfiyyətinin müəyyən edilməsi.

Sahibkarlıq, artan gəlirin inkişafı və dəyərin fərdiləşdirilməsi üçün olduqca dinamik bir texnikadır. Rifah artımını artırmaqla yanaşı cəmiyyətə çoxsaylı məhsul və xidmətlər təqdim edir. Ümumi praktikada sahibkarlar arzu olunan hədəflərə çatmaq üçün zəruri cəsarətə sahib olan motivasiyalı insanlar kimi qəbul edilir. Sahibkarlar millətin iqtisadi böyüməsində və həyat səviyyəsində mühüm amil olub, yalnız ailə üçün deyil, cəmiyyətə, bölgəyə, dövlətə və millətə xeyir verirlər.

İnnovasiya sahibkarlığın ən böyük dayağıdır, araşdırma və inkişaf üçün vəsait sahibkarlıq tərəfindən təmin edilir. Bir şirkətdəki yenilikləri, inkişafı və genişləndirməni artırmaq üçün sahibkarlığın böyük rolu var. Sahibkarlıq fəaliyyəti yeni məhsulların, xidmətlərin və ya istehsal proseslərinin kəşfini, qiymətləndirilməsini, əvvəllər mövcud olmayan məhsullar üçün strategiyalar, təşkilati formalar və yeni bazarların araşdırılmasınıəhatə edir. Beləliklə, o gözlənilməz və hələ qiymətləndirilməmiş iqtisadi fürsətdir.

Yeni bir təşəbbüsün qurulmasının açarı iqtisadiyyatı gücləndirən və iqtisadiyyatın strukturunu qoruyan sahibkardır. Dünyada sahibkarlıq şirkətləri tərəfindən yaradılan iş yerlərinin böyük bir payı var. Bacarıqsız işçilərin təlim və lazımi təcrübə almasına imkan verən çox sayda giriş səviyyəsində iş təmin edirlər. Əslində məşğulluğun böyük bir hissəsi hər il kiçik şirkətlər tərəfindən yaradılır. Hamısı bu deyil; geniş miqyaslı şirkətlərə təcrübəli işçilər yaradır və təmin edirlər. Məşğulluq bazası çox sayda kiçik təşəbbüskar şirkətə bölünsə, bir cəmiyyət olduqca parlaq şəkildə işləyə bilər. Bu standartların daha yaxşı olmasına kömək edir və inkişafın səviyyəsini artırır. Əlavə olaraq, cəmiyyəti sabitlik və daha keyfiyyətli bir həyat ilə təmin edir.

Sahibkarlıq davranışı yenilik, risk alma və proaktivliyi birləşdirməyi bacaran, imkanların aşkarlanması və istismarına və ya müəssisənin yaradılmasına yönləndirilmiş bir davranış olaraq görülür, mövcud bir təşkilat daxilində və ya xaricində yaradılış, risk alma, yeniləmə və ya yenilik anlayışlarını əhatə edir. Nəhayət, sahibkarlıq ruhu kəşf, axtarış və yeniliyi vurğulayır.

Sahibkarın əsas fəaliyyəti fərdi və / və ya qrup səviyyəsində ətraf mühitdə öyrənilə bilən iş yaratmaqdır.Sahibkarlar xüsusi bir qrup insanlardır, lakin hər yerdə - əkinçilər və dükançılar arasında, az savadlı və yüksək savadlılar arasında, kənd və şəhər yerlərində özünü göstərə bilərlər; Sahibkarlar formal olaraq təhsil almamış ola bilər, lakin hamısının yenilik və iş imkanı üçün bir instinkti var - müəyyən bir düşüncə tərzinə sahibdirlər. Sahibkarlıq ruhunu bir işə çevirmək üçün ilk növbədə mikro maliyyələşmə, müvafiq ali təhsil və ya peşə təhsili ilə iş idarəçiliyi təhsili və fərdlər və qruplar üçün bazarlarla daha yaxşı əlaqələr tələb olunur.

Sahibkarların fərdi olaraq araşdırılması, görünüşlərini izah edən dəyişənləri, məsələn, şəxsi xüsusiyyətləri, psixoloji profili (nəzarət qabiliyyəti, qeyri-müəyyənliyə dözümlülük və risk etmə meyli) və ya psixoloji olmayan dəyişənləri (təhsil, təcrübə, şəbəkələr, ailə və s.) əhatə edir.

Uğurlu Sahibkarların Xüsusiyyətləri

Planlaşdırma bacarığı: Sahibkarlar, maliyyə, marketinq, istehsal, satış və işçi heyəti daxil olmaqla müxtəlif sahələrdə hədəflərə çatmaq üçün iş planları qurmağı bacarmalıdırlar.

Marketinq bacarıqları: İnsanların mal və ya xidmətlər almaq istəmələri ilə nəticələnən yaxşı marketinq bacarıqları sahibkarlığın uğuru üçün vacibdir.

Ünsiyyət bacarıqları: Sahibkarlar mallarını və ya xidmətlərini izah etməli, müzakirə etməli və bazarda satmağı bilməlidir.

Şəxsi bacarıq: Başqaları ilə- müştərilər, işçilər, maliyyə borc verənlər, investorlar, hüquqşünaslar və mühasiblər və s.ilə müsbət münasibətlər qurmaq və saxlamaq sahibkarın iş təşəbbüsünün uğuru üçün çox mühümdür.

İdarəetmə bacarıqları: Sahibkarlar işin gündəlik vəzifələri ilə məşğul olmaq üçün başqalarını işə götürsələr də, sahibkarlar şirkətlərinin düzgün mənbələrə sahib olub olmadığını bilməlidirlər.

Liderlik bacarıqları: Şirkət üçün bir vizyon inkişaf etdirmək və işçilərini onu izləməyə ruhlandırmaq bacarığı müvəffəq olmaq üçün mühüm prioritetlərdəndir.

"Sahibkar" termini ilk dəfə iqtisadiyyata 18-ci əsrin əvvəllərində Fransız iqtisadçı Richard Cantillon tərəfindən gətirilmişdir.O yazılarında sahibkarı "məhsulu gələcəkdə qeyri-müəyyən qiymətlərə satmaq üçün müəyyən qiymətlərlə alan agent" olaraq qələmə vermişdi. O vaxtdan bəri iqtisadiyyatda bu terminin istifadəsi göstərir ki, sahibkarlıq risk və qeyri-müəyyənliyə dözüm, məhsuldar ehtiyatların koordinasiyası, yeniliklərin tətbiqi və kapitalın təmin edilməsi deməkdir.

Bundan əlavə, Fransız iqtisadçı Jean Baptiste Say (1767-1832) "istehsal amillərini bir araya gətirmək" ifadəsini əlavə edərək Cantillon tərifini genişləndirdi.Bu sahəyə bir başqa əhəmiyyətli töhfə verən İngilis siyasi iqtisadçı və filosof John Stuart Mill (1806-1873) sahibkarkarı menecerdən fərqləndirən əsas elementin risk olduğunuiddia etdi. Bu axına uyğun olaraq, Gartner (1989: 62) sahibkarlığı "yeni təşkilatların yaradılması" kimi konsepsiya edir.

Adam Smith, sahibkarı "mal və xidmətlərə potensial tələbi tanıyaraq ticarət məqsədlər üçün bir təşkilat qurmağı öhdəsinə götürən və bununla da iqtisadi vasitə kimi çıxış edən və tələbi təklifə çevirən bir şəxs" olaraq tərif etmişdir. Smith iqtisadi sərvətin fərdlər tərəfindən yaradıldığını və fərdlərin mənfəətinin iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi olduğunu göstərir. Onun fikrincə, "Sərvət dövlət tərəfindən deyil, fərdlər tərəfindən yaradılır.

Avstriya əsilli Amerikalı iqtisadçı Joseph Alois Schumpeter (1883-1950) sahibkarlıqla bağlı yeni anlayış irəli sürdü. Onun sözlərinə görə, sahibkarlıq anlayışının mərkəzində yenilik var. Bundan əlavə, Schumpeterə görə,sahibkarlıq "yenilik", sahibkarbu "yenilik"ləri yaradan şəxsdir. "Yenilik" dedikdə

1) yeni bir mal və ya xidmət bazara çıxarmaq,

2) yeni bir istehsal metodundan istifadə etmək,

3) mal haqqında məlumatı olmayan yeni bir bazara girmək

4) bazarda inhisar yaratmaq və ya bazarın strukturunu dəyişdirmək (və ya sənaye yenidən qurulması) kimi müxtəlif ifadələrdən istifadə oluna bilər.

1985-ci ildə bir Amerikalı sahibkar Gifford Pinçot III "intrapreneurship" konsepsiyasını irəli sürdü. "İntraprenurship", böyük bir şirkət daxilində daxili bazarların və firmanın mənbələrini özünəməxsus şəkildə istifadə edərək məhsullar, xidmətlər və ya texnologiyalar istehsal edən nisbətən kiçik iş vahidlərinin inkişafı kimi müəyyən edilə bilər"

Göründüyü kimi, sahibkarlıq və sahibkarlığın konsepsiya edilməsində iki əsas axın var. Birinci axın sahibkarlığı risk alma davranışı ilə güclü şəkildə əlaqələndirir. Bundan əlavə, Schumpeter-in rəhbərliyini götürdüyü ikinci axın, sahibkarlığın yenilikçi davranışını vurğulayır. Müasir iqtisadiədəbiyyatda bu iki yanaşmanı da birləşdirməyə çalışan bəzi yanaşmalar da var.

Hessels "sahibkarlıq yeni bir şeyin yaradılmasıdır " deyə öz tədqiqatında vurğulayır. "Yeni iqtisadi fəaliyyətin yaradılması" konsepsiyasının istifadəsi yalnız yeni təşkilatların yaradılmasını deyil, həm də imkanların tanınmasını, yeni fikirlərin yeniliklərə çevrilməsini əhatə edir.Sahibkarlıq fəaliyyətinin tədqiqi ölkələrarası beynəlxalq müqayisələr aparmaq üçün əsas amillərdən biri kimi iştirak edir və bu sahədə aparılmış araşdırmalar göstərir ki,sahibkarlığın"innovasiya" və "inkişaf" yönümlü olması ölkə iqtisadiyyatlarına fərqli tövhələr verir.

Beləliklə, klassik və müasir ədəbiyyatlarda bir çox tədqiqatçıların təhlillərini ümumiləşdirərək, sahibkarın aşağıdakı rollarını sadalaya bilərik:

1. Qeyri-müəyyənliklə əlaqəli riski öz üzərinə götürən şəxs.
2. Maliyyə kapitalının tədarükçüsü.
3. İnnovasiya yaradan şəxs.
4. Qərar qəbul edən.
5. Sənaye lideri.

6. Menecer və ya nəzarətçi.
7. İqtisadi yeniliklərin təşkilatçısı və koordinatoru.
8. Müəssisənin sahibi.
9. İşəgötürən.
10. Yeni işin başlanğıcını həyata keçirən şəxs

## 1.2. Mikro,kiçik və orta sahibkarlığın müasir ölkə iqtisadiyyatının inkişafındakı rolu və əhəmiyyəti

Texniki, iqtisadi, sosial, təhsil, mədəni və siyasi səviyyələrdə baş verən iqtisadi dəyişikliklərsahibkarlıq sektorunun müasir, dinamik və bilik əsaslı inkişafının ölkə iqtisadiyyatı üçün nə dərəcədə önəmli olduğunu vurğulayır. Sahibkarlıq və sahibkarlar yeni iş yerlərinin açılmasına, yeni məşğulluq imkanlarına, innovasiyaların ortaya çıxmasına, eyni zamanda rəqabət və rəqabət qabiliyyətinin stimullaşdırılmasına kömək etdikləri üçün iqtisadi inkişafın vacib amili hesab olunurlar. Onlar istehsalın inkişafı, kapitalın artırılması,yeni iş yerlərinin yaradılması, istehsalın inkişafı, mənfəətin artırılması, əhalinin sosial rifahının yaxşılaşdırılması və bazarda sağlam rəqabət mühitinin formalaşmasında mühümrol oynayır. Sahibkarlıq, ölçüsündən və yaşından, özəl və ya dövlət qurumu sayılmasındanvə hədəflərindən asılı olmayaraq bütün təşkilatlara təsir göstərir.Mikro, kiçik və orta sahibkarlıq bazar iqtisadiyyatı daxilində aktiv amillərdəndir.Buna görə də onların iqtisadi, sosial və siyasi əhəmiyyəti müasir iqtisadiyyatın əsasını təşkil edir.

KOS-lar ayrı-ayrı ölkələrin iqtisadiyyatının əsas hissəsi kimi qəbul edilir və şübhəsiz ki, KOS-lar iqtisadiyyatın ümumi davamlılığı və sağlamlığı üçün çox vacibdir. Kiçik müəssisələr rəqabət qabiliyyətinin təmin edilməsində və yeni texnikaların istehsalata, hazır məhsulların bazara çıxarılmasında həlledici rol oynayırlar. Xeyli xərclə keyfiyyətli xidmətlər və rəqabətqabiliyyətli məhsullar təqdim edə bilən KOS-lar üçün yaxşı bir mühitin yaradılmasının dünyanın bütün ölkələri üçün əhəmiyyət kəsb edir.

KOS-lar sağlam rəqiblər olaraq bir ölkənin iqtisadiyyatında əhəmiyyətli rola malikdir və onlar daha yüksək effektivliyə, qiymət azalmasına və daha keyfiyyətli məhsullara səbəb olan rəqabəti stimullaşdırırlar. Onlar müəyyən fəaliyyətləri daha böyük həmkarlarından daha yaxşı yerinə yetirir vəiri müəssisələr üçün subpodratçı rolunu oynayır. Müəssisələr inkişaf etmiş iqtisadiyyatlar üçün yalnız iqtisadi artım mühərrikləri deyil, həm də keçid iqtisadiyyatlarında və inkişaf etməkdə olan ölkələrdə, xüsusən də qadınların məşğulluğunu artırmaq və gender bərabərliyini təşviq etmək baxımından mühüm rol oynayır. Qadın sahibkarlar yalnız ölkə daxilində daha çox iş yeri yaratmaqla yanaşı, həm dəqadınları işə götürərəkəmək bazarında cinsi ayrı-seçkiliyi azaldır. Əlavə olaraq, qadın işsizliyinin azaldılması, insan alveri riskini azaldaraq qadın alveri ilə mübarizədə kömək edir. Nəhayət, qadın sahibkarlar öz fikirlərini həyata keçirməyə güc verərək və iş yerlərində və cəmiyyətdə onlar üçün fürsətlərin olduğunu nümayiş etdirərək gənc nəsilləri stimullaşdırır.

"KOS-lar yeni və yüksək texnologiyalı informasiya şəbəkələrini inkişaf etdirmə qabiliyyətləri iləbənzərsiz, aktiv və kritik rol oynayır. Sahibkarlıq ruhu, şəxsiyyətlərarası münasibətlərin gücü və qrup birliyi, dəyişkənlik, çeviklik və təşkilati dinamizm bütün bunlar böyük şirkətlərdən daha çox kiçik, dinamik şirkətlərdədir .Əlavə olaraq yenilik prosesinin mərkəzi, həm rəsmi, həm də qeyri-rəsmi geniş sosial şəbəkələrin qurulmasıdır və kiçik şirkətlər regional şəbəkələri böyük şirkətlərdən daha asan quraraq daha çox ixtisaslaşma və fikir mübadiləsi imkanı yaradırlar. Bütün bunlara əsaslanaraq kiçik şirkətlər və iqtisadi inkişafarasında müsbət bir əlaqə var deyə bilərik.

İnvestisiya cəlb etmək səyləri ilə yanaşı, sahibkarlığın stimullaşdırılması ən çox yerli və regional inkişaf strategiyalarının iki sütunundan biridir. Bir çoxunun iddia etdiyi kimi, KOS-lar daha böyük təşkilatlardan daha çevik, daha sürətlidirlər.Onlarinkişafda mühüm rol oynadığı halda, inkişaf etməkdə olan ölkələrdə olduğu qədər inkişaf etmiş sənayeləşmiş ölkələrdə iqtisadi inkişafın, dinamikliyin və çevikliyin vacib bir mənbəyini özündə cəmləşdirir. Sahibkarlıq

fəaliyyətibir neçə səbəbdən keçid iqtisadiyyatları üçün böyük əhəmiyyətə malikdir. Birincisi, fərdi müəssisənin hüdudlarından kənarda iqtisadi fayda verə bilərlər; yəni təcrübə və öyrənməyətəşviq edirlər. Bu bacarıqlar əvvəllər mərkəzləşdirilmiş planlaşdırılmış sistemlərin bir hissəsi olan ölkələr üçün xüsusilə vacibdir. Əlavə olaraq, onlarxalis yeni iş yerləri yaratmasa da, nisbətən ixtisaslı, işsiz işçilər üçün yeni alternativ məşğulluq imkanları açaraq insan kapitalının aşınmasını azaldır.

Bu fəaliyyət növü ölkələrin iqtisadiyyatında mühüm iqtisadi amillərdən biri olmaqla məhsul və əmlakın daha ədalətli paylanması üçün şərait yaradır,həm də cəmiyyətin müxtəlif təbəqələri arasında gəlir və sərvət bərabərsizliyini azaltmağa kömək edir.Sahibkarlıq iqtisadi tərəqqinin vacib elementidir və əsas əhəmiyyətini müxtəlif yollarla göstərir:

a) ticarət imkanlarını müəyyənləşdirmək, qiymətləndirmək və istifadə etməklə;

b) yeni firmalar yaratmaq və / və ya mövcud şirkətləri daha dinamik hala gətirməklə

c) işə götürən kimi ümumiyyətlə cəmiyyətin rifahını yaxşılaşdırmaqla.

Sahibkarlığın cəmiyyət, o cümlədən fərdlər, ailələr və cəmiyyət üçün əldə edə biləcəyi faydaları aşağıdakı kimi təsvir edə bilərik;

Məşğulluq imkanları

Sahibkarlıq yalnız özünə iş imkanı təklif etmir, həm də başqaları üçün iş yaradır, daha çox iş məmnuniyyəti və işçi qüvvəsinin rahatlığı təklif edir. Bu cür iş yaratma təşəbbüsləri konkret ölkənin insan resurslarından istifadə edir və təbii istedadların reallaşmasına kömək edir. Xüsusən iş yerlərinin az olduğu kənd yerlərində olanlar, artıq sahibkarlıq yolu ilə özlərinə imkanlar yaradırlar.

Gəlirlərin yaradılması

Uğurlu sahibkarlıq fəaliyyəti, ortalama bir insanın gəlir səviyyəsini və eyni zamanda cəmiyyətdəki yaşayış səviyyəsini artırır. Ticarət imkanlarını axtaran

insanlar ümumiyyətlə sahibkarlıq yolu ilə sərvət yaradırlar. Bu sərvət bir millətin inkişafında əhəmiyyətli rol oynayır.

Daha çox insan işləyirsə, daha çox insan vergi ödəyir, bu da hökumət üçün daha çox gəlir deməkdir. Bu həm də cinayət nisbətinin azalacağını və ölkəni ziyarət etmək istəyən daha çox turistin olduğu ölkənin daha etibarlı bir yerə çevrilə biləcəyini göstərir. Turizm artarsa, daha çox iş imkanı yaranacaq və daha çox işləyəninsan olacaqdır. Sahibkarlıq daha çox xarici sərmayə cəlb edə bilər, bunun qarşılığında daha çox iş imkanı yarada bilər.

Şəxsi Çağırış

Sahibkarlıq çətin bir iş olsa da, amma müvəffəq olduqda sahibkar üçün mükafatlar həm maddi, həm də şəxsi ola bilər. Uğur qazandıqca təşəbbüskar özündən razılığı artır və özünə inam qazanır.

Sənayedə irəliləyişlər

Sahibkarlıq, xüsusilə kənd yerlərində və ya iqtisadi fəaliyyətinin çox az olduğu bölgələrdə daha çox sənayenin inkişafına səbəb olur. Bu, yalnız daha çox mal və xidmətlər deyil, həm də daha keyfiyyətli məhsullar deməkdir

Yüksək məhsuldarlıq və iqtisadi artım

Daha çox sənaye aşağı qiymətlərlə daha yüksək istehsal yarada bilər. Sahibkarlıq daxili istehlak üçün hazır məhsullar istehsal etmək və ixrac etmək üçün yerli materiallardan istifadəni təşviq edir. Sahibkarlıq ölkənin getdikcə daha çox məhsul istehsal etməsinə və bununla da öz potensialını və ehtiyatlarını artırmasına imkan verir.

Xammalımızı istehlak malına çevirsək, məhsullarımıza əlavə dəyər veririk, yəni artıq daha yüksək qiymət ala bilərik və eyni zamanda daha çox iş yarada bilərik. Texnologiyalardakı yeni ixtiralar və inkişaf sayəsində bir xalq öz qaynaqlarından daha effektiv şəkildə istifadə edə bilər.

İxracatda artım və idxaldan daha az asılılıq

Sahibkarlıq yeni bazarların inkişafına səbəb olur. Daha çox istehsal etsək, yerli olaraq satılmayan məhsulları ixrac edə bilərik. Bu o deməkdir ki, bir ölkənin məhsulları xarici bazarlara da çıxa bilər. Bunlar yeni işimizi planlaşdırarkən və böyüdərkən nəzərə alınmalı fürsətlərdir. İqtisadi üstünlük yaratmaq üçün ixracat idxalı üstələməlidir çünki ixracdan qazanc qaçılmaz olaraq iqtisadiyyatı stimullaşdırır.Sahibkarlıq bütövlükdə yeni bazarlar, yeni sənaye sahələri, yeni texnologiya, yeni institusional formalar, yeni iş yerləri və real məhsuldarlıqda xalis artımlar yaratmaqla cəmiyyətin sosial sərvətinə töhfə verir.

İqtisadiyyat yenilikdən qaynaqlanır. Bu yeniliyin böyük bir hissəsi işgüzar görmə qabiliyyətini gerçəkləşdirməyə səy göstərən, bacarıqlı və arxa plana sahib irəliləyən düşünən şəxslərdən qaynaqlanır. Bununla birlikdə, sahibkarların əhəmiyyəti, fərdlərin öz şirkətləri üzərində təsiri altındadır.

19-cu əsrdən bəri ABŞ iqtisadiyyatının böyüməsində sahibkarlar həlledici rol oynamışlar. Sənayedə dəyişiklikləri təşviq edir, tamamilə yeni bazarlar yaradır və möhkəm icmalar yaratmağa kömək edirlər. Sahibkarların cəmiyyətə faydası olan dörd yolu aşağıdakılardır:

İqtisadi inkişaf: Sahibkarlar tərəfindən yaradılan və satılan məhsul və xidmətlərin uğuru digər müəssisələrə və bazarlara təsir edir.

Yeni bazarlar: Sahibkarlar tez-tez yeni bazarları hədəf alır və qurulmuş firmaların diqqət mərkəzindən kənarda olan auditoriyalara toxunurlar. Bu, yeni gəlir və qazanc mənbələri yaradır.

Sosial dəyişiklik: Sahibkarların təklif etdiyi yenilikçi mal və xidmətlər köhnəlmiş proseslərdən və texnologiyalardan asılılığı azaldır. Buna bir nümunə, smartfonların müəssisələrin müştərilər, işçilər və tərəfdaşlarla ünsiyyət qurmalarına təsir göstərməsidir.

Cəmiyyətin inkişafı: Sahibkarlar, istər bir qonşuluqda, istərsə də qitələrdə ortaq məqsədləri və maraqları olan insanlar arasında toplum hissini inkişaf etdirirlər. Məhsulları və xidmətləri cəmiyyətlərin sosial və iqtisadi rifahına töhfə verir.

Sahibkarlar hər iqtisadi və sosial mənşədən gəlirlər. İnnovasiyanın faydalı işlərə çevrilməsinə dair çətinliklərə hazırlaşmaq üçün sahibkarlar İdarəetmə və Liderlik dərəcəsi kimi proqramlardan əldə etdikləri təlim və təcrübəyə etibar edirlər.

Uğurlu sahibkarlar xəyallarını və başqalarının xəyallarını gerçəkləşdirirlər. Şəxsiyyətlərini, bacarıqlarını və yaradıcılıqlarını müştəri ehtiyacları və bazar imkanları ilə uyğunlaşdıra bilərlər. Bu təlimatda sahibkarlığın əhəmiyyəti izah olunur, sahibkarlığın müxtəlif növləri və üslubları təqdim olunur və hədəflərinizə çatmaq üçün ən vacib olan bacarıqlar təsvir olunur.

Sahibkarlıq, fərdlərə, ailələrə və ümumi cəmiyyətə mütləq bir çox üstünlük verir. Bu üstünlüklər bir-birinə təsir göstərir və çarpan effekti yaradır. Daha çox məhsul istehsal etdiyimiz zaman, eyni zamanda iş yerləri yaradaraq, idxal ehtiyacımızı azalda və ixrac üçün artıq mala sahib ola , iqtisadiyyatı yüksəldə, yaşayış şərtlərini yaxşılaşdıra və hökumətdən asılılığı azalda bilər.

Sahibkarlığın bir cəmiyyətə təsiri belə ümumiləşdirilə bilər:

- Məşğulluq imkanları yaradır
- Daha az sosial problemlə nəticələnən gəlir gətirir
- Yenilik gətirir
- Məhsuldarlığı və iqtisadi böyüməni artırır
- İxracatı artırır və idxaldan asılılığı azaldır

Beləliklə, ölkənin və ya bölgənin iqtisadi inkişafına təsir edən amillərin müəyyənləşdirilməsinə dair iqtisadçılar və siyasətçilər arasında mübahisələrin intensivləşməsi daha çox tədqiqatçını sahibkarlıq fəaliyyətini və xüsusən onun iqtisadi inkişafla əlaqəsini araşdırmağa təşviq etmişdir.Belə tədqiqatlardan biri Acs, Z.J.; Audretsch, D.B.; Braunerhjelm, P.; Carlsson, B tərəfindən aparılmış və sahibkarlığın ölkə iqtisadiyyatındakı rolu emprik test edilmişdir.Təhlilin nəticələri göstərir ki, insan kapitalına investisiya ilə yanaşı, sahibkarlıq iqtisadi inkişafa da müsbət təsir göstərir. Bu zaman 18 ölkə üçün toplanmış statistik göstəricilərdən istifadə edərək, onlar iqtisadi artımdakı sahibkarlığın (özünüməşğulluq dərəcəsi ilə

ölçülən) əhəmiyyətini təhlil etmişlər. Müəlliflər sahibkarlığın biliyin yayılmasını və innovasiyanı asanlaşdıran və bununla da iqtisadi inkişafa kömək edən bir vasitəçi olduğunu bildirmişdir. Acs Z.J və digərlərinin qeyd etdiyi kimi, sahibkarlıq biliyi inkişafa çevirən bir mexanizmdir. Onlarınmodelinə əsasən sahibkarlar tədqiqatçıları işə götürərək yeni biliklər yaradır. Bu, biliyi inkişafa çevirən ilk mexanizmi təşkil edir. Endogen inkişaf modelində texnoloji irəliləyiş fərdi fəaliyyətlərdən və ya yeni iqtisadi biliklərə sahib fərdi agentlərdən gəlir. Bununla birlikdə, endogen inkişaf modellərində bilik yaradılması endogen olduğu halda, biliyin diffuziyası (bilik axını) ekzogendir. Onlar biliklərin avtomatik olaraq dağıldığını deyil, bunun əvəzinə sahibkarlıq kimi bir ötürmə mexanizmi tələb etdiyini iddia edirlər.Sahibkarlıq biliklərin ötürülməsində mühüm rol oynayır və nəticədə iqtisadi artım prosesində həlledici bir elementdir.Onlar iqtisadi artımı izah edən modellərə sahibkarlığın və ya yeni biznesə başlamaq meylinin əlavə edilməsini təklif edirlər.

Audretsch və Keilbach sahibkarlığıniqtisadi inkişafa vacib bir təsiri olduğunu vurğulamışdır. Beləliklə, Almaniya üzrə statistik göstəricilərdən istifadə edərək onlar sahibkarlıq kapitalının müxtəlif formaları ilə iqtisadi artım arasındakı əlaqəni yoxlamışdır. Empirik nəticələr sahibkarlıq kapitalının müsbət olduğunu və iqtisadi göstəricilərlə əhəmiyyətli dərəcədə əlaqəli olduğunu göstərir. Müəlliflər sahibkarlıq kapitalını iqtisadi mühitə təsir göstərən və formalaşdıran amillərin məcmusu kimi qiymətləndirir ki, bu da sahibkarlığın inkişafının və tədqiqinin mahiyyətini vurğulayır. Onlar apardıqları araşdırmalara əsaslanaraq sahibkarlıq kapitalının artımını təşviq edən islahatların iqtisadi göstəricilərə müsbət təsirini əsaslandırmışdır. Əmək və fiziki kapitala yüksək sərmayə qoyuluşu özləri effektiv innovasiya tərəfindən stimullaşdırılır və innovasiya olmadıqda davam etdirilə bilməz. Bir çox tədqiqatlar sahibkarlığı iqtisadi inkişafın tətikləyicisi kimi vurğulayır və bəzi müəlliflər sahibkarlığı makroiqtisadi istehsal funksiyasında dördüncü istehsal faktoru kimi daxil edirlər.

Hessels və Van Stel yeni firmaların ixrac yönümünü nəzərə alaraq sahibkarlığın iqtisadi artıma təsirini araşdırmışlar. Müəlliflər sahibkarlığın iqtisadi inkişafa müsbət təsir göstərdiyini,əlavə olaraq ixrac yönümlü olmasının iqtisadi inkişafa əhəmiyyətli töhfə verə biləcəyini sübut etmişlər.

Ovidiu Stoica , Angela Roman və Valentina Diana Rusu 22 Avropa ölkəsi üzrə təhlil aparıb sahibkarlıq fəaliyyəti ilə iqtisadi artım arasında müsbət və statistik cəhətdən əhəmiyyətli əlaqə tapmışdır ki, bu da sahibkarlıq fəaliyyətinin genişləndirilməsinin iqtisadi inkişafı stimullaşdıracağını göstərir. İki qrup ölkənin (keçid ölkələri və innovasiyaya əsaslanan ölkələr) müqayisəli təhlili göstərir ki,müxtəlifnöv sahibkarlığın iqtisadi artımdakı rolu bircins deyil.

Sahibkarlıq və iqtisadi inkişaf arasındakı əlaqə, Galindo və Mendez tərəfindən də təhlil edilmişdir.Onlar sahibkarlıq fəaliyyəti , innovasiya və iqtisadi inkişaf arasında sıx bir əlaqə olduğunu, sahibkarlığın və innovasiyanın iqtisadi aktivliyin artmasına kömək edəcəyini vurğulamışdır. Araşdırma zamanı onlar innovasiya , sahibkarlıq fəaliyyəti və iqtisadi inkişaf arasında hər üç faktorunhər birinin digərlərinə müsbət təsir göstərdiyiüçlü əlaqəninolduğunu müəyyən etmişlər. Digər bir araşdırmada , N.; Content, J.; Sanders, M.; Stam, E. institusional mühitin keyfiyyəti ilə sahibkarlıq və iqtisadi artım arasındakı əlaqə təhlil edilmişdir. 2003-2014-cü ildövrünün 25 Avropa Birliyi ölkəsinə əsasən toplanmış statistik məlumatlardan istifadə edən müəlliflər, institusional mühitin sahibkarlığı stimullaşdırdığını və bunun iqtisadiinkişafa kömək edəcəyini təsbit etdilər. Sözügedən araşdırma, sahibkarlığın iqtisadi artıma müsbət təsir göstərdiyinə və onun maliyyə sabitliyi, dövlətin iqtisadi dayanıqlığı və yeni biznes yaradılması imkanları tərəfindən proqnoz olunduğunu nəticələndirmişdir.

Bjørnskov və Foss öz tədqiqatında sahibkarlığın beynəlxalq müqayisə olunması üçün üç yola toxunur. Birincisi, sahibkarlıq fəaliyyətinin iqtisadi inkişafa təsirini qiymətləndirmək üçün müəyyən sayda sinifbölgülərindən istifadə edirlər. Bu sinifbölgüsünü proqnozlaşdırmaq üçün institusional keyfiyyət göstəricilərindən

istifadə edərək, sahibkarlığın daha məhsuldar olmasına hansı qurumların töhfə verdiyini müəyyən edə bilirlər. İkincisi,institusional dəyişənlərin və sahibkarlıq fəaliyyətinin göstəriciləri arasındakı əlaqəni özündə birləşdirən bir alqoritmdən istifadə edildiyi inteqrasiya olunmuş Qlobal Sahibkarlıq İndeksihazırlayır. Nəticə, milli və ya regional) səviyyədə institusional keyfiyyətlə tənzimlənmiş sahibkarlıq indeksidir. Üçüncüsü, ikinci variantda olduğu kimi alqoritmin qurulması yerinə və ya birinci variantda olduğu kimi sinif bölgüsü yerinəsahibkarlığın məhsuldarlığının ölçüldüyü qiymətləndirmə modellərindən istifadə etməkdir.

İqtisadi inkişafa nail olmaq üçün sahibkarlığın verdiyi töhfə geniş şəkildə tanınsa da, bəzi araşdırmalar iqtisadi artıma təsir göstərməyən müxtəlif sahibkarlıq növləri olduğunu göstərir. Məsələn, 37 ölkə üzrə göstəricilərdən istifadə edərək, Wongtexnoloji yeniliyin və müxtəlif növ sahibkarlıq fəaliyyətlərinin ÜDM artımına təsirini araşdırdı. Tədqiqatın nəticəsi göstərir ki, innovasiya ÜDM artımının müsbət və əhəmiyyətli bir amilidir.Sahibkarlığa gəldikdə, müəlliflər yüksək potensial sahibkarlığın digər sahibkarlıq fəaliyyət növlərinə nisbətən ÜDM artımına daha güclü təsir etdiyini tapdılar. Mueller Qərbi Alman bölgələri üzrə sahibkarlığın regional iqtisadi inkişafatəsirini yoxladı. Empirik nəticələr göstərdi ki, yeni start-up fəaliyyətin artması ümumilikdə sahibkarlığın artmasından daha çox iqtisadi inkişafatəkanverir. Müəllif eyni zamanda sahibkarlığın yalnız regional iqtisadi artımı stimullaşdırdığına işarə edir.

Əlavə olaraq, digər tədqiqatlar göstərir ki, sahibkarlığın iqtisadi artıma təsiri bir ölkənin iqtisadi inkişaf mərhələsindən asılı olaraq fərqlidir. Bosma öz tədqiqatında vurğulayır ki, zəngin ölkələrdən fərqli olaraq, aşağı gəlirli ölkələrdə sahibkarlıq əsasən zərurətdən qaynaqlanır. Bəzi tədqiqatlarinkişaf etmiş ölkələrdə sahibkarlığın iqtisadi inkişafa müsbət təsirinin inkişaf etməkdə olan ölkələrə nisbətən daha çox olduğunu nəticələndirsə də, digərləri yüksək gəlirli ölkələrdə sahibkarlığın əhəmiyyətli bir təsiri olmadığını , lakin aşağı gəlirli ölkələr üçün mühüm rol oynadığını bildirmişdir.

Görünən odur ki, makro və mikro səviyyələrdə sahibkarlığın müvəffəq və uğursuz olmasının səbəbləri çoxdur.Bəzən alimlər tərəfindən tənqid olunsa da; mədəniyyət, din, etimad, maliyyə və təhsil sistemləri, siyasi və hüquqi qurumlar kimi bəzi makro səviyyəli amillər sahibkarlıq prosesləri üzərində bəzi təsirlər göstərə bilər .Məsələn, De Clercq fərdi qaynaqlar (insan, sosial və maliyyə kapitalı) və yeni iş fəaliyyəti kimi iki dəyişən arasındakı əlaqənin rəsmi qurumlar və qeyri-rəsmi təşkilatlar tərəfindən idarə olunduğunu fərz etmişdir.Onların təhlilləri fərziyyələrinin qismən doğru olduğunu sübut etdi. Digər tərəfdən psixoloji amillərin də sahibkarlıq üzərində makro səviyyədə təsiri olduğunu sübut edən bəzi araşdırmalar vardır.Məsələn,Rauch və Frese, sahibkar davranışla özünəməxsusluq, yenilikçilik, nailiyyət ehtiyacı, və stresə qarşı dözümlülük kimi bəzi şəxsi xüsusiyyətləri arasında müsbət və əhəmiyyətli bir əlaqə olduğunu sübut etdilər.

İstər klassik iqtisadçıların, istərsə də müasir iqtisadçı alimlərin fikirlərini ümumiləşdirdikdə görürük ki, sahibkarlıqvə onun iqtisadi inkişafa təsiri hər zaman mühüm prioritetlərdən olmuşdur. Bu səbəbdən, dünyanın hər yerində akademiklər, iş adamları və hökumətlər üçün sahibkarlığın araşdırılmasımaraq obyekti olmuşdur.Beləliklə,kiçik müəssisələr iqtisadi inkişafın əsas təşviqçiləri kimi qəbul edilməli, bu istiqamətdə təhlillər aparılmalı, yeni məqsədlər qarşıya qoyulmalı, davamlı monitorinqlər aparılmalı və onlar üçün optimal şərait yaradılmalıdır.

# II FƏSİL. AZƏRBAYCANDA KİÇİK SAHİBKARLIĞIN İNKİŞAF VƏZİYYƏTİNİN TƏDQİQİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Ölkə iqtisadiyyatının diversifikasiyasında və qeyri-neft sektorunun inkişafında sahibkarlıq fəaliyyətinin mühüm yeri

Bu gün Azərbaycan Respublikasının iqtisadiyyatının üzləşdiyi ən mühüm problemlərdən biri neft sektorundan asılılıq və iqtisadiyyatın diversifikasiyasının kifayət qədər olmamasıdır. Ölkə iqtisadiyyatının dayanıqlığını səciyyələndirən, həmçinin büdcəyə pul axının əsas hərəkət verici amili olan ixracın diversifikasiyası davamlı iqtisadi inkişafın vacib amillərindəndir.Neft sektoru zəngin Azərbaycanın iqtisadi inkişafında aparıcı rol oynasa da, bu gün ölkənin iqtisadi siyasətinin əsas məqsədi Azərbaycan iqtisadiyyatını xammal asılılığından çıxarmaq və qeyri-neft sektorunu inkişaf etdirməkdir. Son bir neçə ildə ölkədə aparılan islahatların əsas mövzusu budur.

Tədqiqatın əsas məqsəd Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsinin mövcud vəziyyətini göstərmək və son göstəriciləri əks etdirən qrafik və cədvəllər vasitəsilə kənd təsərrüfatının və sahibkarlığın qeyri-neft sektorunun stimullaşdırılmasında rolunu vurğulamaqdır.Uğurlu iqtisadi şaxələndirməyə nail olmaq üçüniqtisadi və siyasi sabitlik, enerji mənbələri, iqtisadi mühit üçün əlverişli hüquqi baza kimi güclü tərəflər qiymətləndirilməlidir.Bir sözlə, dövlət KOS-ları inkişaf etdirərək ÜDM-in şaxələndirilməsinə diqqət yetirməli, eyni zamanda bu sektorun ixracdakı payını artırmalı və nəticədə inkişafa və yaşayış standartlarının yüksəlməsinə zəmin yaradılmalıdır. Qeyri-neft sektorunun inkişafı iqtisadiyyatın neft qiymətlərinin dəyişkənliyinin mənfi təsirlərindən azaldılması üçün əsas məqamdır.

Qrafik 1-ə nəzər yetirsək üzrə ÜDM-in artımının neft qiymətlərindəki dəyişimlərə qarşı həssas olduğunu müşahidə edərik.

**Qrafik 1: ÜDM-in artım sürəti**




**Mənbə:**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin ixrac icmalına əsasən, 2020-ci il üzrə Azərbaycanın ixracı 13,7 milyard ABŞ dollar olmuşdur ki, bunun cəmi 1,9 milyard ABŞ dolları qeyri-neft sektorunun payına düşür.Bundan əlavə, Ötən illərə də nəzər yetirdikdə görürük ki, iqtisadiyyatımız neft qiymətlərindəki mənfi dəyişikliklərə qarşı həssasdır.

ÜDM-in əvvəlki ilə nisbətən artım sürətinə nəzər yetirdikdə görürük ki, 2004 cü ildən etibarən real mənada artım olduqdan sonra Azərbaycan 2015-ci ildə tənəzzül yaşadı. 2014-cü ildə neft qiymətlərindəki enmə, əsas regional ticarət tərəfdaşlarındakı iqtisadigeriləmə 2016-cı ildə ÜDM-də azalma ilə nəticələndi. Neft qiymətlərindəki artım və sərt makroiqtisadi siyasətlərin təsiri ilə 2017-ci ildən canlanma başladı, lakin iqtisadiyyat hələ də böhrandan əvvəlki istehsal səviyyəsinə qayıtmaqdan bir qədər geri qalır. 2015-16-cı illərdə yerli valyutanın - manatın devalvasiyası inflyasiya

səviyyəsinin yüksəlməsi ilə nəticələndi ki, bu da yerli valyutanın həmçinin ümumi iqtisadiyyatın neft qiymətindəki dəyişikliklərə qarşı həssas olduğunu diversifikasiyanın labüdlüyünü vurğulayır.

2016-cı ildə Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsindən etibarənölkəmizdə qeyri-neft sektoru üzrə ixracın genişləndirilməsi daha ön plana çəkildi.2016-ci ildən etibarən ölkəmizdə qeyri-neft sektoru üzrə statistik göstəricilərə nəzər yetirsək artımın olduğunu müşahidə edərik. Lakin bu artım bir qədər nominal yəni kəmiyyət artımı xarakteri daşıyır. Belə ki, məhsulların çeşidliliyi və coğrafi diversifikasiyası daha da təkmilləşdirilməlidir.

Belə ki, ixraca məhsul siyahısı üzrə nəzər yetirdikdə ixrac olunan məhsulların da zəif şaxələndiyini müşahidə edirik.

**Cədvəl 1: Qeyri- neft məhsulları ixrac üzrə**

| **2020-ci ildə ixrac olunan əsas qeyri-neft mallarının siyahısı ( milyon ABŞ dolları ilə)** | |
|---|---|
| Qızıl | 205.6 |
| Tomat (pomidor) | 201.4 |
| Pambıq mahlıcı | 131.9 |
| Fındıq ləpəsi | 113.6 |
| Xurma | 91.6 |
| İlkin formalı polipropilen | 64.5 |
| Elektrik enerjisi | 59.8 |
| Metanol | 51.2 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 48.8 |
| Digər | 883 |

**Mənbə:** İxrac icmalı 2020 məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur

Və son olaraq ixrac olunan məhsullara ölkələr üzrə baxsaq, 2020-ci ildə qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsiRusiya, Türkiyə, İsveçrə, Gürcüstan ,Çin olduğunu görərik.2020-ci il ərzində Rusiyaya 6910 milyon, Türkiyəyə 377,8 milyon, İsveçrəyə 224,8 milyon, Gürcüstana 127,6 milyon və Çinə 44,5 milyonABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.Qeyd olunan ölkələrə qeyri-neft sektoru üzrə ixrac ümumi qeyri-neft sektoru üzrə ixracın 77.2 faizini təşkil edir ki,

bunun da36.3 faizi təkcə Rusiyanın payına düşür. Bu isə onu göstərir ki,ölkəmizdə qeyri-neft sektoru ölkələr üzrə də zəif şaxələnib ki,ölkəmiziniqtisadiyyatını qeyd olunan ölkələrin iqtisadiyyatındakı böhran və büdrəmələrə də qarşı həssas edir.

**Diaqram 1: İxrac ölkələri**




**Mənbə:**İxrac icmalı 2020məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur

Buna baxmayaraq, qeyri-neft sektorunun inkişaf etdirilməsi yönümündə tədbirlər dövlətin qarşıya qoyduğu mühüm çağırışlardan olmuşdur. Bu şaxələndirmə çağırışına cavab olaraq hökumət qeyri-neft sektorunun rəqabət qabiliyyətini artırmaq üçün bir sıra davamlı islahatlar həyata keçirməkdədir. 2000-ci ildən etibarəniqtisadi diversifikasiyaya dəstək məqsədilə aqrar bölmə, informasiya və kommunikasiya texnologiyaları, yoxsulluğun azaldılması turizmin inkişafı sosial-iqtisadi inkişaf və o cümlədən, sahibkarlığın dəstəklənməsi ilə əlaqədardövlət proqramları qəbul olunmuşdur.Prezident 2016-cı ilin dekabrında iqtisadiyyatın neft və qaz, kənd təsərrüfatı, turizm, maliyyə daxil olmaqla əsas sahələrindəki qısa, orta və uzunmüddətli hədəfləri ətraflı şəkildə əks etdirən“Milli iqtisadiyyat perspektivi üzrəstrateji yol xəritəsi” qəbul etdi.Keçirilən islahatların nəticəsi olaraq DünyaBankının 2019-cu ildə Doing Business hesabatında əhəmiyyətli bir irəliləyiş

əldə edərək 2018-ci ildə 57-ci olan 25-ci mövqeyə çatdı. Lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 59-dan 37-yə, icazələrin sayı 330-dan 86-ya endirilərək inzibati tələblərin sadələşdirilməsi istiqamətində ciddi səylər göstərilmişdir. Elektron hökumət xidmətləri əhəmiyyətli dərəcədə genişləndirilərək şirkət qeydiyyatı, biznes lisenziyalaşdırılması, dövlət satınalmaları təmin edilmişdir , gömrük və viza müraciət prosedurlarının asanlığı və şəffaflığını təmin edərək onlayn şəkildə tamamlanması istiqamətində tədbirlər həyata keçirilmişdir.Ölkə iqtisadiyyatımızın əsas prioriteti qeyri-neft sektoru olsa da neft sektorunun da diversifikasiyası vacib amillərdəndir.

Bundan əlavə, Azərbaycan məhsullarının ixrac coğrafiyası xeyli genişlənir və xarici ticarət fəaliyyəti ilə məşğul olan sahibkarların sayı artır. Hökümət, iş yerlərini təşviq etmək və sahibkarlara sağlam iş mühitinin inkişafı üçün lazımi şərait yaratmaqla dəstək olmaq üçün əlindən gələni edir. Məsələn, yoxlamaların dayandırılması ölkədə biznesin inkişafına təkan vermək üçün vacib bir addım hesab olunur. Yeni bazarlara çıxmağa yönəlmiş bir təşəbbüs olan "Made in Azerbaijan" brendinin təbliği ölkənin xarici iqtisadi siyasətinin prioritetlərindən biri olmuşdur.

Qeyri-neft sektorunu inkişaf etdirmək üçün ölkənin təbii və iqtisadi qaynaqları tam və səmərəli şəkildə istifadə edilməlidir. Alternativ (bərpa olunan) enerjinin istifadəsini sürətləndirmək məqsədilə stimullaşdırıcı tədbirlər görülməli, institusional mühit inkişaf etdirilməli, elmi və texniki potensial gücləndirilməli, kadr hazırlığı davam etdirilməli və enerji istehlakçıları üçün maarifləndirmə kampaniyaları aparılmalıdır.

Bu sahədə dövlət tərəfindən maliyyələşdirilən layihələrə əlavə olaraq, özəl sektorun iştirakı təşviq edilməli və alternativ enerji tariflərini tənzimləmək üçün çevik prosedurlar tətbiq edilməlidir.

Qeyri-neft sektorunun inkişafına xidmət edən və müasir tələblərə cavab verən müasir istehsal, sosial və bazar infrastrukturu yaradılmalı və mütərəqqi idarəetmə üsulları tətbiq olunmalıdır.Bölgələrdə mövcud xammal müəssisələrinin yenidən təşkili və yeni keyfiyyətli müəssisələrin yaradılması üçün tədbirlər görülməli və ixrac

gücü artırılmalıdır.Qeyri-neft sektoruna investisiya axınının sürətləndirilməsi üçün stimullaşdırıcı prosedurlar tətbiqi və qeyri-neft ixracatını gücləndirmək üçün dövlət və özəl sektorlar arasında investisiya əməkdaşlığın inkişafı mühümdür.

Qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün təkcə məhsul istehsalının artırılması yetərli şərt deyil. İxrac üzrə məhsul çeşidliyini və coğrafi diversifikasiyanın artırılması yönündə məhsullarımız müqayisəli üstünlük qazanmalıdır. Müqayisəli üstünlük dedikdə məhsulun qiymət üstünlüyü (məhsul xarici bazarda digər rəqabətdə olduğumuz satıcılardan daha aşağı qiymətə təklif olunmalıdır) və keyfiyyət üstünlüyü (məhsul beynəlxalq standartlara uyğun təklif olunmalıdır) nəzərdə tutulur.

## 2.2. Azərbaycanda sahibkarlıq subyektlərinin təhlili və inkişaf perspektivləri

Son illərdə, xüsusən 2014-cü ildən sonra,Azərbaycanda sahibkarlıq mühitinin yaxşılaşdırılmasına yönəlmiş fərqli təşviq mexanizmləri müşahidə edilmişdir.

YeniKOS-lar yaradıldı və qeydiyyat prosedurlarında və vergi inzibatçılığında inkişaf müşahidə edildi, fərdi sahibkarlıq sayı artdı.Buna baxmayaraq, KOS-ların milli iqtisadiyyatda rolu hələ də məhduddur.

Diaqram2-də 2019-cu ildə fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ümumi sayını faiz olaraq  əks etdirir ki, bunun da əsas hissəsini (97%) mikro sahibkarlıq subyektləri təşkil edir.

**Diaqram 2: Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ümumi sayı**




**Mənbə:**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur

Statistika komitəsinin məlumatına əsasən 2019-cu il üçün Azərbaycanda fəaliyyətdə olan 262622 mikro , 5956 kiçik və 2726 sayda orta sahibkarlıq subyektləri mövcuddur ki, onların 48 faizi Bakı şəhərində , 52 faizi isə regionlarda qeydiyyatdan keçmişdir.

Qrafik 2 üzrə kiçik sahibkarlıq subyektlərində işçilərin sayının 2015-2019-cu il üçün dəyişim dinamikası əks olunmuşdur.

**Qrafik 2: Kiçik sahibkarlıq subyektlərində işçilərin sayı**




**Mənbə:**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur

**Cədvəl 2:Fəaliyyətdə olan sahibkarlıq subyektlərinin ümumi sayı**

| **Fəaliyyətdə olan sahibkarlıq subyektlərinin ümumi sayı** | |
|---|---|
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 3339 |
| Sənaye cəmi | 10983 |
| Tikinti | 6249 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 84844 |
| Nəqliyyat və anbar təsərrüfatı | 42965 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 19903 |
| İnformasiya və rabitə | 4115 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 6044 |
| Təhsil | 3888 |
| Əhaliyə səhiyyə və sosialxidmətləringöstərilməsi | 1808 |
| Digər sahələr | 87166 |

**Mənbə:**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur

O cümlədən, qeyd olunan dövr ərzində iqtisadi fəaliyyət növləri üzrə işləyənlərin sayında5.3 faiz mikro,11.2 faizkiçik və 27.2 faizorta sahibkarlıq subyektlərinin payı olmuşdur. Yeni yaradılmış mikro, kiçik və orta sahibkarlıq subyektlərinin 15961-i hüquqişəxs, 87988-i isə fərdi sahibkar olmuşdur ki, bunun 99,8 faizini mikro sahibkarlıq subyektləri təşkil edir.

**Qrafik 3: Sahibkarlıq subyektlərinin say dinamikası**




**Mənbə:**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur

2019-cu ildə qeydiyyatda olan müəssisə və təşkilatların 21.1 faizi "Ticarət; nəqliyyat vasitələrinin təmiri", 19.82 faizi "sənaye", 15.53faizi "Tikinti", 12.95 faizi "Emal sənayesi"12.6faizi "Digər sahələrdə xidmətlərin göstərilməsi", 7.97 faizi "Nəqliyyat və anbar təsərrüfatı", 7.79 faizi "Turistlərin yerləşdirilməsi və ictimai iaşə" , 4.2 faizi "İnformasiya və rabitə" , 3.78 faizi "təhsil", 3.61 faizi "Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı" 2.97 faizi "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" , 2.12 faizi "Daşınmaz əmlakla əlaqədar əməliyyatlar" , 2.04 faizi "Əhaliyyə səhiyyə və sosial xidmətlərin göstərilməsi" , 1.98

faizi "Mədənçıxarma sənayesi" , 1.29 faizi "Su təchizatı; tullantıların təmizlənməsi və emalı" bölmələrin payına düşür.

**Diaqram 3: Sahibkarlıq subyektlərinin məhsul buraxılışı**




**Mənbə:**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur

**Qrafik 4: Fəaliyyətdə olan kiçik sahibkarlıq subyektlərinin ümumi sayı**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur

**Diaqram 4: Fəaliyyətdə olan sahibkarlıq subyektlərinin ümumi sayı**




**Mənbə:**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur

Dünya Bankının Doing Business 2020-ci il nəşrinə əsasən Azərbaycanda aşağıdakı uğurlu islahatlar keçirilmişdir.

2020-ci il üzrə

Əmlakın qeydiyyatı: Azərbaycan kadastrının əhatə dairəsini artıraraq və kadastr planlarını rəqəmsallaşdıraraq əmlak qeydiyyatını asanlaşdırdı və daha şəffaf etdi.

Kredit alınması: Malların, gəlirlərin və orijinal təminatın əvəzlənməsinin avtomatik olaraq yayılacağı gəlməli aktivlər də daxil olmaqla, ehtiyatların istifadəsi ilə bağlı hər hansı bir məhdudiyyət qoyulmadan kredit əldə etməyi asanlaşdırıldı.

İnvestorların Qorunması: Ədalətsiz əlaqəli tərəflərlə əməliyyatlara görə direktorlara məsuliyyət qoyaraqinvestorlarının qorunmasını gücləndirildi.

Vergilərin ödənilməsi: Azərbaycan yeni bir əmək qatqısı əlavə edərək vergi ödəməyi daha da çətinləşdirdi.

Müqavilələrin icrası: Azərbaycan iddiaçıların ilkin şikayəti elektron qaydada təqdim etməsinə imkan verən elektron sistem tətbiq edərək və könüllü vasitəçilik haqqındaqanun qəbul edərək müqavilələrin icrasını asanlaşdırdı.

2019-cu il üzrə

İnşaat icazələri ilə iş: İnşaat icazəsi müddətini sadələşdirildi, çünki tikinti icazələri indi yalnız Bakı Şəhər İcra Hakimiyyətinin bir pəncərəsindən əldə edilir.

Elektrik enerjisinin alınması: Şəbəkə infrastrukturuna investisiya qoyularaq və elektrik enerjisinin kəsilməsini izləyən milli tənzimləyici quraraq enerji təchizatı etibarlılığını artırdı. Vahid bir pəncərə sistemi qurularaq elektrik enerjisini asanlaşdırdı.

Əmlakın qeydiyyatı: Torpaq idarəetmə sisteminin şəffaflığı artaraq əmlak qeydiyyatı asanlaşdırıldı.

Kredit alınması: Funksional təminatlı əməliyyatlar sistemini tətbiq edən, təminat kimi istifadə edilə bilən aktivlərin əhatəsini genişləndirən yeni təminatlı əməliyyatlar qanunu tətbiq edilərək kredit əldə olunması asanlaşdırıldı. Eyni zamanda vahid, müasir və bildirişlərə əsaslanan girov reyestri quruldu və yeni kredit bürosu yaradılaraq kredit məlumatlarına çıxış imkanları yaxşılaşdırıldı.

İnvestorların qorunması: Səhmdarların hüquqları və əsas korporativ qərarlarda rolu artaraq, daha çox korporativ şəffaflıq tələb edərək investorlarının qorunması gücləndirildi.

Vergilərin ödənilməsi: Azərbaycan elektron faktura (e-faktura) və sosial sığorta haqları üçün vahid vergi bəyannaməsi tətbiq edərək və vergi gəlirləri üçün onlayn platformanı genişləndirərək vergi ödəməyi asanlaşdırdı.

Sərhədlər üzərindən ticarət:Elektron gömrük prosedurları sadələşdirilərək və “yaşıl dəhliz” qapı sistemini tam tətbiq etməklə sərhədlər daxilində ticarəti daha sürətli oldu.

İşçilər: Azərbaycanda işçilərin ixtisar edilməsi və işdən çıxma ödənişlərinə dair bildiriş müddəti ilə bağlı qaydalara dəyişikliklər edildi.

**Cədvəl 3: Sahibkarlıq subyektlərinin məhsul buraxılışı**

| Sahibkarlıq subyektlərinin məhsul buraxılışı | |
|---|---|
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 577611.6 |
| Sənaye cəmi | 3843953.4 |
| Tikinti | 3011759.2 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 4092029.3 |
| Nəqliyyat və anbar təsərrüfatı | 1544817.9 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 1511231.0 |
| İnformasiya və rabitə | 818063.5 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 410989.9 |
| Təhsil | 733751.8 |
| Əhaliyə səhiyyə və sosialxidmətləringöstərilməsi | 395911.4 |
| Digər sahələr | 2446590.3 |

**Mənbə:**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur

Ölkəmizdə sahibkarlığın inkişaf etdirilməsi üçün güclü potensial və geniş imkanlar vardır.Əgər inkişaf etmiş ölkələrin ümumi daxili məhsuluna nəzər yetirsək görərik ki,Azərbaycan üçün sahibkarlığın ÜDM-dəki xüsusi çəkisinin artırılması vacib şərtlərdəndir. Ümumi biznes mühitinin yaxşılaşdırılması, maliyyə resurslarına əl çatanlığın daha sərfəlitəşkili, sahibkarlıq subyektlərinin xarici bazarlara çıxışının dəstəklənməsi ölkə iqtisadiyyatının qarşısında duran əsas çağırışlardandır. Ölkəmizdə pandemiyadan sonra iqtisadi inkişafın bərpasını təmin etmək üçün kiçik və orta sahibkarlıq sahəsində idarəetmə daha da təkmilləşdirilməli, subyektlərin mövcud vəziyyəti üzrə problemlərin müəyyən olunması məqsədilə davamlı təhlillər aparılmalıdır.Böhrandan sonra sahibkarlıq fəaliyyətinin bərpası təkcə onlar baxımından deyil, həm də ümumi ölkə iqtisadiyyatının dirçəlməsi üçün vacib şərtlərdəndir. Qlobal proseslər və pandemiya şəraiti dövlət dəstəyinin

artırılmasınıdaha daön plana çəkir.Çünki bizneslər baxımından müqayisə etsək görərik ki, sahibkarlıq subyektləri pandemiyadan daha ciddi zərər görmüşdür. Müəssisələr istehsal fondlarından istifadənin yaxşılaşdırılması, işçi qüvvəsinin təkmilləşdirilməsi, istehsal vasitələrinin keyfiyyətinin yüksəldilməsinə yönələrəkbeynəlxalq bazara daha da rəqabətqabiliyyətli məhsullarla çıxa bilərlər.Qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində müəyyən qədər irəliləyişlər olsa da, hələ də bəzi təkmilləşdirmələr edilməlidir. Sahibkarlıq, o cümlədən KOS siyasətinə dair vahid yanaşmanın, innovasiyaların, beynəlxalq standartların daha geniş tətbiqi, ixrac bazarlarının araşdırılmasında dövlət dəstəyinin artırılması, maliyyə, konsaltinq və digər dəstək mexanizmlərinin daha da genişləndirilməsi, dövlətin dəstək alətləri üçün monitorinq və qiymətləndirmə mexanizmlərinin yaradılması üçün prioritetlər müəyyənləşdirilməli və ölkədə sahibkarlığın inkişafı ciddi dəstəklənməlidir.

## 2.3.Azərbaycanda kiçik müəssisələrin inkişafı və böyüməsi ilə bağlı məhdudiyyətlər

Dünyadakı neftin qiymətinin kəskin azalmasından sonra sahibkarlığın inkişafının zəruriliyi hökumətin aktual prioritetinə çevrildi. Bəzi məhdudiyyətlər Azərbaycanda müəssisələrin böyüməsinə və effektivliyinə mane olur. Bu məhdudiyyətlərə misal olaraq aşağıdakıları sadalaya bilərik:

- aşağı investisiya qoyuluşları
- maliyyə və vergi məsələləri
- maliyyəyə çıxış üçün mürəkkəb prosedurlar (banklardan kredit almaq baxımından)
- məlumat və texniki mənbələrin qeyri-kafi səviyyəsi
- dövlət fondlarının qeyri-bərabər bölgüsü bölgüsü
- bazar infrastrukturunun olmaması
- mövcud qanunvericilikdə bir sıra problemlər.

Bütün yuxarıda göstərilən amillər bir araya gələrək ölkədə sahibkarlıq fəaliyyətini hədəf alan strategiyalar hazırlayarkən onların mövcudluğunun nəzərə alınmasını və qiymətləndirilməsini tələb edir.

Bu istiqamətdə təkcə milli iqtisadiyyatda sahibkarlığın əhəmiyyəti və dəyərinə deyil, həm də Azərbaycanda mövcud sahibkarlıq fəaliyyətini təhlil edərək Azərbaycanda sahibkarlıq fəaliyyətinin və KOS-ların inkişaf etdirilməsi üçün həyata keçirilməli olan əsas fəaliyyətlərə aydınlıq gətirmək lazımdır. Ölkəmizdə son illərdə sahibkarlığın inkişaf etdirilməsi üçün bir sıra tədbirlər görülmüşdür və beləliklə bunun nəticəsi olaraq sahibkarlığınaşağıdakı güclü tərəflərini sadalaya bilərik:

- Geniş elektron hökumət infrastrukturu
- biznes qeydiyyatı üçün əlverişli mühit və digər sahələrdə davam edən islahatlar
- yaxşı infrastruktur və xidmət təminatı

- KOS-ların inkişafına dövlət dəstəyi
- Enerji daşıyıcılarının qiyməti qonşu ölkələrdən daha aşağı olması

Sahibkarlığın üzləşdiyi əsas məhdudiyyətlərdən biri kiçik və orta sahibkarlığın uzunmüddətli və aşağı faizli kreditlərə çıxış imkanlarının olmamasıdır. Bank sektoruna nəzər yetirsək görərik ki, ölkəmizdə kredit faizləri yüksək, aylıq ödənişlər yuxarı, şərtləri isə ağırdır. Maliyyə resursları ilə təminatın zəifliyi mikro, kiçik və orta sahibkarlığın ümumi ölkə iqtisadiyyatında, həmçinin ixracda payının aşağı olmasına təsir göstərən ən başlıca xüsusiyyətlərdən biridir.Yeni startuplar üçün maliyyə vəsaitlərinin əl çatan olmasının vacib şərtlərdən olduğunu nəzərə alsaq, bu sahədə dövlət proqramları daha da təkmilləşdirilməlidir. Qeyd edək ki, sahibkarlar kommersiya banklar, Bank Olmayan Kredit Təşkilatları (BOKT), habelə Sahibkarlığın İnkişafı Fondu vasitəsilə öz bizneslərini maliyyələşdirə bilər. Yeni biznеslərin maliyyə resurslarınaçıxışməhdudiyyətlərinin əsas səbəbi iflas və ya uğursuzluq riskinin yüksək olmasıdır. Bu istiqamətdə zəmanət fondunun yaradılması, girovsuz maliyyələşmə mexanizmlərinin tətbiqi, risklərin sığortalanması və s. kimi xüsusi yanaşmaların tətbiqi genişləndirilməlidir. Bu gün sahibkarlığın inkişafı maliyyə təminatında olan problemləri aradan qaldırmaq üçün maliyyələşdirmədə tətbiq olunan metodlar və üsulların təkmilləşdirilməsinə ehtiyac duyur. Buna görə də inkişaf etmiş ölkələrinin bu sahədəki təcrübəsi, həmin ölkələrin sahibkarlığın maliyyələşdirilməsində tətbiq etdikləri metodlar, beynəlxalq standartlar dərindən öyrənilməli və tətbiq edilməlidir.Azərbaycanda banklar iflas vəziyyətində geri ödəmə imkanları az olduğu üçün KOS-lara kredit vermək istəmirlər.

Azərbaycan qanunvericiliyi həm daşınar, həm də daşınmaz əmlak baxımından təminatın yaradılmasına icazə versə də, əslində banklar nəqliyyat vasitələri, gəmilər və qiymətli kağızlar kimi qeydə alınmış daşınar əmlaklar istisna olmaqla, daşınar əmlakla təmin olunan maliyyəni nadir hallarda qəbul edirlər. Çox vaxt banklar daşınmaz əmlak şəklində girov tələb edir ki, bu da KOS-ların maddi vəziyyətini çətinləşdirir. Bütün bu şərtlər birlikdə ən azı KOS-lar baxımından bank sektorunda

islahatlara təkan verir. Lizinq və faktorinq kimi digər maliyyə alətlərindən hələ də geniş istifadə olunmur.Beynəlxalq maliyyə qurumları və dövlət maliyyələşdirmə sxemləri kimi alternativ kredit variantları sahibkarlar tərəfindən demək olar ki, tamamilə istifadə edilmir. Bütün bunlar göstərir ki, Azərbaycanda KOS-larınmaliyyəyə çıxış imkanları şaxələndirilməyib. Digər çatışmazlıq Azərbaycan sahibkarlarının maliyyə savadsızlığı ola bilər. Maliyyə savadlılığındakı boşluqlar həm tələbə, həm də təklifə təsir edir.

Hazırda ölkəmizdə həm də sahibkarların hüquqi şəxs olmaqdansa, fərdi sahibkar kimi qeydiyyatdan keçməyə üstünlük verdikləri də müşahidə edilir. Bunu bir neçə yolla izah etmək olar:

1) Qeydiyyat. Qeydiyyat hüquqi şəxslərdən daha çox fərdi sahibkarlar üçün daha asandır;

2) Qeydiyyat, lisenziya və icazələr kimi xərclər fərdi sahibkarlar üçün hüquqi şəxslərdən daha aşağıdır

3) vergi müfəttişi və nəzarəti. fərdi sahibkarlar yerli və ya regional şöbələri tərəfindən KOS-larla müqayisədə daha az yoxlanılır, çünki nazirliklər və qurumların qərargahlarında qeydiyyatdan keçmiş fərdi sahibkarların siyahısı yoxdur. Hüquqi şəxslər nazirlik və agentliklərin mərkəzi qərargahında qeydiyyatdan keçməlidirlər; bu səbəbdən bu hökumət strukturları tərəfindən mütəmadi olaraq yoxlanılır.

Əhəmiyyətinə baxmayaraq, yoxlamalar sahibkarlar və sahibkarlıq fəaliyyəti üçün böyük maneələr ola bilər. Yoxlamaları tənzimləyən qanunvericilikdəki çatışmazlıqlar sahibkarlıq üçün böyük bir problemdir. Şəffaflıq, obyektivlik və əminlik artırılmalıdır; hökumət bütün müəssisələrin qanuni olaraq müəyyən edilmiş metod və hədəflərinə riayət etməsini təmin etməlidir.Beləliklə, yerli əmək bazarının ehtiyacları ilə işçi qüvvəsinin peşəkar keyfiyyətləri arasında uçurum mövcuddur ki, bu da kifayət qədər ixtisaslı işçi çatışmazlığı və yerli və milli bazara uyğun olmayan işçi qüvvəsi ilə nəticələnir.

Bu gün ölkə iqtisadiyyatının qarşısında duran mühüm hədəflərdən biri də gənc sahibkarlara dəstək mexanizminin daha da inkişaf etdirilməsi olmalıdır.Gənc sahibkarların böyük hissəsi fəaliyyətlərinə kiçik sahibkar kimi başlayırlar. Onlariqtisadi inkişafın onurğasını təşkil edirlər. Gənc sahibkarlartəkcə vergi ödəmə funksiyasınıyerinə yetirib büdcə gəlirlərinin formalaşmasındaiştirak etməklə deyil, həmçinin innovativlik və yenilik gətirməklə iqtisadiyyata öz töhfələrini verirlər. Lakinonlar biznesə başlayarkən bir çox məhdudiyyətlərlə üzləşirlər. Buratəcrübəsizlik, idarəçiliyin zəif təşkili, bazara tam bələd olmamaqla bərabər, maliyyə mənbələrinin əl çatanlığının olmaması daxildir. Gənc sahibkarların dəstək mexanizminin daha da yaxşılaşdırılması istiqamətində biznes inkubatorların fəaliyyətitəkmilləşdirilməlidir.İnkubatorların məqsədləri, onlara lazımi dəstək , maliyyə və texniki xidmətlər göstərərək gənc müəssisələrin yaradılmasına və böyüməsinə kömək etməkdir.İnkubatorlargəncmüəssisələrin sahiblərinə çoxsaylı köməklik göstərir. Onların ofis ləvazimatları və avadanlıqlarıbazar qiymətlərindən aşağı səviyyədə təklif olunur, həmçininbiznes və marketinq planlarının hazırlanmasında, həm də yeni yaranmış müəssisələrin maliyyələşdirilməsində köməkçi olan məsləhətlər və ehtiyac duyulan təcrübələr təqdim edirlər. Hazırda yalnız Quba-Xaçmaz Regional İnkişaf Mərkəzində və Yevlax şəhərində yerləşən Aran Regional İnkişaf Mərkəzində biznes inkubatorlar fəaliyyət göstərir. Onların sayının və coğrafi əlçatanlığının daha da şaxələndirilməsi sahibkarlıq fəaliyyətinin inkişafına təkan verməlidir.Digər tərəfdən bu gün ölkə iqtisadiyyatında xarici investisiya qoyuluşuna nəzər yetirsək müşahidə edərik ki, bir çox sənaye sahəsi üzrə əsas kapitala yönəldilən investisiyalar yox səviyyəsindədir.2019-cu il üzrə statistika komitəsinin məlumatına əsasənsənayedə əsas kapitala yönəldilən xariciinvestisiyaların 66% mədənçıxarma sənayesinə yönəldilmişdir.(Cədvəl4) Sahibkarlıq subyektlərinin üzləşdiyi digər bir məhdudiyyət isə onların beynəlxalq aləmdə tanınmaqda çətinlik çəkməsi, xarici müəssisələrlə rəqabətdə qabiliyyətinin güclü olmaması, müxtəlif ölkələrin tətbiq etdiyi xarici bazara çıxış üzrə

məhdudiyyətlərdir.Bazar məlumatlılığı ilə bağlı yetərli məlumatın olmaması yerli onlar üçün başqa bir maneədir. Bu, beynəlxalq bazarlara sərhədlərini genişləndirmə qabiliyyətini əngəlləyir. Milli və beynəlxalq səviyyələrdən asılı olmayaraq, onların əksəriyyəti bazar haqqında kifayət qədər məlumata malik deyillər.

Sahibkarların əsasən Rusiya bazarına meyil göstərməsi qarşı tərəfin məhsul alışından imtina etməsi zamanı onlara ciddi zərər vurur. Buna görə dəixracın coğrafi diversifikasiyası dəyməli zərər riskini minimallaşdırır. İxrac potensialını təhlil edərkən, nəzər yetirməli əsasamillər keyfiyyət, dünya bazar standartlarına və qiymətlərinə uyğunluqdur.

Bu gün ölkəmizdə Azexport.az portalının istifadəsi sahibkarlara yeni bazarların tapılmasında, xarici bazarların əsas tələbinin öyrənilməsində geniş imkanlar yaratmışdır. Lakin bu istiqamətdə dövlət və sahibkarlar arasında əlaqənin zəif olması , sahibkarların yaradılmış fürsətlərdən tam yararlana bilməməsi onlar üçün məhdudiyyətlər yaradır.Bu istiqamətdə sahibkarlar məlumatlandırılmalı, yeni istiqamətlərə, yeni bazar axtarışlarına təşviq edilməlidir.

Sahibkarlığın üzləşdiyi məhdudiyyətlərdən biri də sahibkarların vergi yükünü azaltmaq üçün çalışan xeyli sayda işçilərin rəsmi qeydiyyata alınmaması işçilərlə əmək müqaviləsi bağlamaması, xidməti müqaviləsi ilə işə götürməsidir.Bu isə “kölgə iqtisadiyyatı”nın yüksək olmasına gətirib çıxarır ki, bu sahədə vergi qanunvericiliyi təkmilləşdirilməlidir.

Azərbaycanda KOS-ların xarakterik xüsusiyyəti ölkənin paytaxtında və Abşeron rayonunda yerləşmələri, ölkənin digər bölgələrinə yayılmamasıdır. Nəticədə Abşeron və Bakı ilə müqayisədə bölgələrdə sahibkarlıq fəaliyyəti yaxşılaşmayıb. Bu tendensiya, balanssızlığa səbəb olur və regional sahibkarlığın davamlı zəif inkişafına səbəb olur.

Sahibkarlıq subyektləri hazırdaiflasın qarşısını almaq üçün əlavə olaraq vergi güzəştləri və güzəştli kredit xətti, qrantlar şəklində ciddi maliyyə dəstəyinə ehtiyac duyurlar. Həmçinin, ev təsərrüfatlarına ödənişlərdən azadolma və ya nağd ödəniş

transferləriişçilərə birbaşa əmək haqqlarının ödənilməsi kimi alternativlərlə dəstək olmaq mümkündür.

Bütün dünyada beynəlxalq və yerli müəssisələr virus ilə mübarizə üçün dövlətin tətbiq etdiyi məhdudiyyətlərlə üzləşir. Bu sahibkarlıq subyektlərinə tətbiq olunmalı dəstək mexanizminihəmişəkindən daha aktual edir. Pandemiyanın sahibkarlıq üçün yaratdığı məhdudiyyətin səbəblərdən biri də böhranın gözlənilməz olması həm də onun qaynağının iqtisadi olmaması – səhiyyə ilə bağlı olmasıdır. Turizm,hotelçilik, ictimai iaşə, əyləncə, nəqliyyat, ticarət sahələri , yük dövriyyəsi,sərnişin dövriyyəsi üzrə fəaliyyət göstərən müəssisələr daha ciddi zərər görüb.

Beləliklə, Azərbaycanda müəssisələrin inkişafı və böyüməsi ilə bağlı məhdudiyyətləri aşağıdakı kimi ümumiləşdirə bilərik:

- Pandemiya şəraiti
- Rəsmi koordinasiyavə hərtərəfli strategiyanın olmaması
- Dövlət-özəl məsləhətləşmələrin zəif olması
- Bank maliyyəsinə məhdud giriş
- Sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin təsirini müəyyənləşdirmək üçün monitorinq və qiymətləndirmə sisteminin zəifliyi
- Ticarət bacarıqlarının aşağı səviyyəsi
- Korrupsiya qavrayışları
- Beynəlxalq və regional bazarlara çıxışdakı çətinliklər
- Aşağı beynəlxalq ticarət vərdişləri
- Mümkün xarici iqtisadi amillər (maliyyə böhranı, beynəlxalq bazarlarda tələbin azalması və s.)
- Yerli KOS-ların beynəlxalq bazarlarda zəif daxili rəqabət qabiliyyəti
- İqtisadi dəyişkənlik dövründə təbii ehtiyatlardan asılılıq

- İnnovasiya və sahibkarlıq kimi əsas sahələrdə müstəqil icra agentliklərinin olmaması
- Milli standartların və texniki tənzimləmələrin müəyyənləşdirilməsindəki gecikmələr

Prezidentin 4 aprel 2020-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planı koronavirusun yayılmasının sahibkarlığamənfi təsirini azaltmaq üçün dəstək mexanizmini nəzərdə tutur.Burada sahibkarlığa kompensasiya məbləğləri ayrıldı və aşağıdakı istiqamətlərdəvergi güzəştləri tətbiq edildi.

- sadələşdirilmiş vergi üzrə müddətli güzəştlər
- əmlak və torpaq vergisindən müddətli azadolmalar
- mənfəət (gəlir) vergisi güzəştlər
- vergilərin ödənilməsi müddətinin uzadılması
- zəruri məhsul növlərinin idxalınaƏDV-dən müddətli azadolmalar
- Zəruri məhsul növlərinin istehsalı ilə bağlı xammal idxalına ƏDV-dən azadolmalar
- icarə haqqından tutulan vergilər üzrə güzəştlər
- sosial sığorta yükünün azaldılması

Sahibkarlığın inkişafı üçün dövlət dəstəyinin artırılması, dövlət-özəl tərəfdaşlığının möhkəmləndirilməsi, vergi güzəştləri, investisiyaların təşviqi, istehsal sahələrinin diversifikasiyası, dövlət satınalmalarına və infrastruktur layihələrinə sahibkarlıq subyektlərinin cəlbi, beynəlxalq proqramların imkanlarından istifadənin genişləndirilməsi, maliyyə əl çatanlığı imkanlarının artırılması önəmli faktorlardan hesab edilir.Sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin və süni maneələrin aradan qaldırılması, rəqabət qabiliyyətinin və ixrac imkanlarının genişləndirilməsi, sahibkarlara dövlət dəstəyi və təşviq mexanizmlərinin formalaşdırılması, beynəlxalq standartlara uyğun elektron dövlət xidmətlərinin göstərilməsi sahəsində kompleks tədbirlərin həyata keçirilməsi neft və qazdan ixrac gəlirlərindən asılılığın azaldılması üçün əsas addımlardandır. Kiçik və orta müəssisələrin və kənd təsərrüfatı

müəssisələrinin iş yerlərinin yaradılmasına verdiyi töhfələri nəzərə alaraq hökumət iqtisadi artıma nail olmaq və neft və qaz gəlirlərindən asılılığı azaltmaq üçün müəssisələrə güzəştli kreditlər və vergi güzəştləri verməlidir.Hansı regiona , hansı məhsulla çıxmaq üzrə hər bir potensial ixrac ölkəsinə fərdi yanaşılmalı ,onları yerli məhsullarımıza cəlb edməli amillər nəzərdən keçirilməlidir. Bu gün Avropa bazarlarına inteqrasiya etmək istəyiriksə, məhsullarımızın keyfiyyətinə xüsusi yer ayırmalıyıq. Şaxələndirmə həm də Azərbaycana daha əhatəli inkişaf modelinə keçmək imkanı verir.

# III FƏSİL. AZƏRBAYCANDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN STATİSTİK QİYMƏTLƏNDİRİLMƏSİ

## 3.1. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makro-iqtisadi göstəricilərinin statistik təhlili

Sahibkarlıq subyektləri üzrə statistik qiymətləndirmə aparmaq üçün tədqiqat işindəsektorlar üzrə (kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq; emal sənayesi; tikinti; ticarət, nəqliyyat vasitələrinin təmiri; nəqliyyat və anbar təsərrüfatı; nəqliyyat və anbar təsərrüfatı; turistlərin yerləşdirilməsi və ictimai iaşə; informasiya və rabitə; daşınmaz əmlakla əlaqədar əməliyyatlar; təhsil; əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi; digər sahələrdə xidmətlərin göstərilməsi) kiçik sahikarlıq subyektlərinin məhsul buraxılışı və qeyri-neft sektoru üzrə ÜDM-in illik göstəricilərdən istifadə olunmuşdur.

Bu cür təhlil qeyd olunan göstəricilərin dinamikası, onların birgə hərəkətinin mümkünlüyü, onlar arasındakı korrelyasiya asılılığı kimi frazalar üçün ilkin təsəvvürün yaranmasında xüsusi önəm kəsb edir.Tədqiqata daxil edilmiş nominal kiçik sahibkarlıq subyektlərinin məhsul buraxılışı (kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq; emal sənayesi; tikinti; ticarət, nəqliyyat vasitələrinin təmiri; nəqliyyat və anbar təsərrüfatı; nəqliyyat və anbar təsərrüfatı; turistlərin yerləşdirilməsi və ictimai iaşə; informasiya və rabitə; daşınmaz əmlakla əlaqədar əməliyyatlar; təhsil; əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi; digər sahələrdə xidmətlərin göstərilməsi) və nominal qeyri-neft sektoru üzrə ÜDM statistik göstəriciləri Azərbaycan Dövlət Statistika Komitəsinin statistik verilənlər bazasından götürülmüşdür. Müşahidə dövrü 2010-2019-cu illəri əhatə edir. Bu nominal göstəricilər müvafiq istehlak qiymətləri indeksinin istifadəsi ilə 2010-cu ilin qiymətlərində real dəyərə konvertasiya edilməlidir.

Sahibkarlıq subyektləri üzrə göstəricilər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 18 dekabr tarixli 192 nömrəli, 2015-ci il 5 iyun tarixli 215 nömrəli və 2018-ci il 21 dekabr tarixli 556 nömrəli qərarı ilə təsdiq edilmiş müxtəlif meyarlara əsasən müəyyən olunmuşdur. Belə ki, qeyd edilən meyarlaraəsasən 2010-2014-cü illərdə kiçik sahibkarlıq, 2015-2017-cü illərdə kiçik və orta sahibkarlıq, 2018-2019-cü illərdə mikro, kiçik və orta sahibkarlıq üzrə bölgülərdən istifadə olunmuşdur. Buna görə də, təhlildə 2010-2019-cu illər üzrə kiçik sahibkarlıq subyektlərinin sektorlar üzrə məhsul buraxılışından istifadə olunur.

**Cədvəl 5: Qeyri-neft sektoru üzrə Ümumi daxili məhsul (nominal) mln manat**

| ÜDM qeyri-neft sektoru | |
|---|---|
| 2010 | 19,179.0 |
| 2011 | 23,196.1 |
| 2012 | 26,864.4 |
| 2013 | 30,525.9 |
| 2014 | 33,195.9 |
| 2015 | 34,138.8 |
| 2016 | 35,951.1 |
| 2017 | 40,328.0 |
| 2018 | 41,662.0 |
| 2019 | 44,481.8 |

**Mənbə:**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur

Cədvəl 5 və Cədvəl 7 üzrə uyğun olaraq 2010-2019 cu illərin kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq; emal sənayesi; tikinti; ticarət, nəqliyyat vasitələrinin təmiri; nəqliyyat və anbar təsərrüfatı; nəqliyyat və anbar təsərrüfatı; turistlərin yerləşdirilməsi və ictimai iaşə; informasiya və rabitə; daşınmaz əmlakla əlaqədar əməliyyatlar; təhsil; əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi; digər sahələrdə xidmətlərin göstərilməsi üzrəkiçik sahibkarlıq subyektlərinin məhsul buraxılışı və qeyri-neft sektoru üzrə ÜDM göstəricilərinin cəmi istehlak qiymətləri indeksi vasitəsilə reala çevrilərək cədvəl 6-da əks olunmuşdur.

**Cədvəl 6:Qeyri-neft sektoru üzrə ÜDM və Kiçik sahibkarlığın məhsul buraxılışı real göstəricilərlə,** ***mln manat***

| İllər | Qeyri-neft sektoru üzrə ÜDM | Kiçiksahibkarlıq subyektlərinin məhsul buraxılışı |
|---|---|---|
| 2010 | 19,179.0 | 3.8355 |
| 2011 | 22,723.1 | 4.122691844 |
| 2012 | 28,086.7 | 5.332674777 |
| 2013 | 31,509.6 | 6.268299023 |
| 2014 | 34,603.6 | 6.204089645 |
| 2015 | 34,696.8 | 4795.509601 |
| 2016 | 33,808.1 | 4387.986448 |
| 2017 | 37,756.2 | 4573.20768 |
| 2018 | 43,046.7 | 2357.827169 |
| 2019 | 45,825.8 | 2630.944703 |

**Mənbə:**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur

Kiçik sahibkarlıq və qeyri-neft sektoru üzrə ÜDM arasındakı əlaqəni qiymətləndirmək üçün cədvəl 3.2-də qeyd olunmuş 2010-2019-cu illər üzrə real statistik göstəricilərdən istifadə etməklə korrelyasiya əmsalı yoxlanmışdır.Qeyd edilən göstəricilər arasında korrelyasiya əmsalı 0.56 olmuşdur. Bu isə kiçik sahibkarlıq subyektlərinin qeyri- neft sektorunun inkişafında oynadığı mühüm rolu vurğulayır. Bu gün Azərbaycan Respublikasının iqtisadiyyatının üzləşdiyi ən mühüm problemlərdən biri olan neft sektorundan asılılıq və iqtisadiyyatın diversifikasiyasında sahibkarlıq fəaliyyətinin genişləndirməsi həll edici rol oynaya bilər.Sektorlar üzrə də ayrı-ayrılıqda kiçik sahibkarlıq subyektlərinin məhsul buraxılışına və qeyri-neft sektoru ümumi daxili məhsuluna nəzər yetirdikdə sıx asılılığın olması müşahidə olunur. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq; təhsil; əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi; emal sənayesi üzrə kiçik sahibkarlıq subyektləri ilə qeyri-neft sektoru ümumi daxili məhsulu arasında korrelyasiya əmsalı daha yüksəkdir. Qeyri-neft sektoru üzrə ÜDM və kiçik sahibkarlıq arasındakı korrelyasiya əmsalları aşağıdakı kimidir;

Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq – 0.86

Emal sənayesi – 0.84

Tikinti – 0.79

Ticarət, nəqliyyat vasitələrinin təmiri – 0.27

Nəqliyyat və anbar təsərrüfatı – 0.35

Turistlərin yerləşdirilməsi və ictimai iaşə – 0.28

Informasiya və rabitə – 0.79

Daşınmaz əmlakla əlaqədar əməliyyatlar – 0.78

Təhsil – 0.85

Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi – 0.85

Qiymətləndirmənin nəticəsi onu sübut edir ki, ticarət, nəqliyyat vasitələrinin təmiri; nəqliyyat və anbar təsərrüfatı; turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə kiçik sahibkarlıq subyektlərinin qeyri-neft sektoruna təsiri zəif olsa da kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq; emal sənayesi; tikinti; informasiya və rabitə; daşınmaz əmlakla əlaqədar əməliyyatlar; təhsil; əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi üzrə kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsi qeyri-neft sektorunun inkişafına daha çox təkan verə bilər.

## 3.2. Sahibkarlıq subyektlərinindövlət tərəfindən dəstəklənməsinin əsas istiqamətləri

### Kənd təsərrüfatının dəstəklənməsi

Azərbaycanın ixracında kənd təsərrüfatı mühüm paya sahibdir vəkənd təsərrüfatında istehsalın intensivləşdirilməsi ölkə iqtisadiyyatının qarşısında duran daimi vacib şərtlərdəndir. Qeyri-neft sektorunun inkişafının əsas sahələrindən biri kimi kənd təsərrüfatı məhsullarının emalına xüsusi diqqət yetirilməlidir. Ən son texnologiyanın kənd təsərrüfatı emalı müəssisələri tərəfindən tətbiqi istehsal güclərini artırar və yeni müəssisələrin açılmasına səbəb olar.Kənd təsərrüfatı sahibkarlarının özlərini birləşdirdikləri sahələrə misal olaraq südçülük, meşəçilik və bağçılıq, kənd təsərrüfatı məhsulları və məhsullarının istehsalı və marketinqi daxildir.

Kənd təsərrüfatına dövlət dəstəyi davam etdirilməli, sektorun kreditləşdirilməsi proseduru sadələşməli və özəl xidmət şirkətləri şəbəkəsi genişləndirilməlidir həmçinin kənd təsərrüfatı sığortası prosedurları təkmilləşdirilməlidir. Ən son texnologiyanın kənd təsərrüfatı üzrə müəssisələr tərəfindən tətbiqi istehsal güclərini artırar və yeni müəssisələrin açılmasına səbəb olar. Kənd təsərrüfatına dövlət dəstəyi davam etdirilməli, sektorun kreditləşdirilməsi proseduru sadələşdirilməli və özəl xidmət şirkətləri şəbəkəsi genişləndirilməlidir. Həmçinin kənd təsərrüfatı sığortası prosedurlarınıntəkmilləşdirilməsi də mühüm amildir. Aşağıdakı tədbirlərin yerinə yetirilməsi istiqamətində sahibkarlıq subyektlərinin cəlb olunması kənd təsərrüfatına müsbət təsir edəcəkdir:

- Ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalının təşviqi
- Genetik və bioloji müxtəlifliyin qorunması, tingçilik, toxumçuluq və maldarlığın yaxşılaşdırılması üçün ardıcıl tədbirlər
- Fermerlərin müasir texnika, gübrə, toxum və fidanla təminatı yaxşılaşdırılması
- Kənd təsərrüfatında kadr hazırlığının daha da yaxşılaşdırılması

- Kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafı üçün stimullaşdırıcı tədbirlər görülməsi

İnkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatında məşğulluğun keyfiyyətinin yüksəldilməsi insanların iş təhlükəsizliyini yaxşılaşdırır, eyni zamanda aqrar məhsulların istehsalı da onların fəaliyyətləri və sahibkarlıqları sayəsində artır. Bu səbəbdən kənd təsərrüfatında məşğulluğun səmərəliliyi artırılaraq bir çox məsələlər də həll olunur. Kənd təsərrüfatı müəssisələri qida istehsalı ilə məşğul olan istehsalın şaxələndirilməsində əsas məqamlardan biridir.

ÜDM-də kənd təsərrüfatı sektorunun payı cəmi 5-6% olmasına baxmayaraq, son statistik məlumatlara görə, Azərbaycanda 36,3%, başqa sözlə 1,592,000 ilə məşğulluq imkanlarının ən böyük hissələrindən birini təmin edir. Kənd təsərrüfatı ölkənin sosial-iqtisadi və siyasi problemlərinin həllində, xüsusən bölgələrdə insanların məşğulluğunda müstəsna rol oynayır.

Bölgələrdə müasir və yüksək texnoloji anbar komplekslərinin yaradılması kənd təsərrüfatının sürətli inkişafını asanlaşdıracaq, mövsümi qiymətlərin tənzimlənməsinə kömək edəcək, itkilərin qarşısını alacaq, daxili bazarı qoruyacaq və ixrac potensialını artıracaqdır.Məhsuldarlıq göstəricilərinin artmasıhəm də birbaşa ixrac məhsullarımızın rəqabətqabliyyətinə təsir göstərir. Beləliklə, kənd təsərrüfatına kiçik sahibkarlıq subyektlərinin cəlb olunması ixrac potensialını gücləndirməklə yanaşı, həmbu sahədə çalışanların gəlirlərinin artmasına müsbət təsir edəcək, həm də məşğulluqla bağlı problemlərin də həllinə təkan verəcəkdir. Düzdür, beynəlxalq təcrübəyə də nəzər yetirsək müşahidə edərik ki, sahibkarlıq subyektlərinin alternativ fəaliyyət sahələrinin yaradılmasına yönləndirilməsi daha yaxşı nəticələr verə bilər.

**Sənayenin dəstəklənməsi**

Azərbaycan iqtisadiyyatının qədim və ənənəvi sahəsi olan yüngül sənaye geniş potensiala malikdir. Yüngül sənaye mallarına olan daxili tələbat demək olar ki, tamamilə idxal hesabına ödənilir və bu sahədə sahibkarlıq subyeklərinə dəstək mexanizminin inkişaf etdirilməsini zəruriləşdirir. Hal-hazırda ölkəmizdə dəri, dəridən

olan məmulatlar və ayaqqabı istehsalında nailiyyətlər var.Bu sahəyə sahibkarlıq subyektlərinin cəlb olunması ölkəmizin ixrac potensialının genişləndirilməsinə təkan verər.

Müasir texnologiyalar əsasında yeni müəssisələrin fəaliyyətinin dəstəklənməsi;

- Bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi;
- Dövlətin sahibkarlara modernləşmə istiqamətində dəstək göstərməsi;
- Qədim milli ənənələrə əsaslanan yüngül və toxuculuq sənayesində, xüsusi ilə geyim və digər istehlak mallarının istehsalına investisiyaların təşviqi;
- Yüngül və toxuculuq sənayesininkeyfiyyətinin və rəqabətqabiliyyətinin artırılması;
- Əl ilə toxunan xalça istehsalına sahibkarlıq subyektlərinin cəlb olunması, sahənin xammal bazasının möhkəmləndirilməsi dövlət dəstəkləməsinin əsas istiqamətlərindən olmalıdır.

**Tikintinin dəstəklənməsi**

Tikinti sahəsində sahibkarlıq subyektlərinin inkişafı yalnız yeni yaşayış binalarının inşasına deyil,boya, qapı-pəncərə, kabel, keramika, alçipan, kərpic-armatur istehsalına da müsbət töhfəsini vermiş olacaq. Bu yüzlərlə şirkətin inkişafına yol açır. Hansı ki, həmin şirkətlərin də eyni zamanda işçi qüvvəsinə müsbət təsir edir. Həmçinintikinti sahəsinin inkişafı mebel istehsalı, çılçıraqların satışına da müsbət təsir etmiş olur.
Bu istiqamətdə aşağıdakı tədbirlər yerinə yetirilməlidir:

- iqtisadi islahatlar aparılmalı;
- risklərin azaldılması ilə bağlı olaraq bir sıra məsələlərin təhlili;
- innovasiya fəaliyyətinin inkişafına dəstəyin artırılması və bu sahənintəşkili və tənzimlənmə mexanizminin inkişafı;

- innovasiya fəaliyyəti ilə əlaqədarvahid qanunvercilik bazasının yaradılmalı
- milli standartlar formalaşdırılmalı

### İnformasiya texnologiyalarının dəstəklənməsi

Azərbaycanın müasir inkişafında İKT imkanlarının genişləndirilməsi konsepsiya çərçivəsində aşağıdakı amillər nəzərə alınmalıdır:

İKT sistemində etibarlı təhlükəsizlik sisteminin yaradılması,

bilik əsaslı cəmiyyətə keçidin təmin edilməsi,

İKT inkişafı ilə bilik əsaslı iqtisadiyyatın qurulması,

dövlət və yerli idarəetmə orqanlarına İKT tətbiqinin genişləndirilməsi,

cəmiyyətin informasiya məhsulları və xidmətlərinə olan tələbinin ödənməsi

İKT sektorunun rəqabət qabiliyyətini və ixrac potensialını gücləndirilməsi.

Kosmik sənayenin inkişafı üçün tədbirlər görülməsi

Telekommunikasiya şəbəkəsinə yeni texnologiyaların tətbiqi

### Təhsilin dəstəklənməsi

Dövlətin irimiqyaslı infrastruktur layihələrinə xərclərinə nəzər yetirsək təhsilə ayrılan investisiya xərclərinin azaldığını görərik.Azərbaycanın problemi təhsilə və ümumilikdə insan kapitalına kifayət qədər sərmayə qoymamasıdır. İqtisadi inkişafa daha uzunmüddətli və şaxəli təsir göstərmək üçün insan kapitalına və təhsilə dəstək dövlət qarşısında duran mühüm çağırışlardandır. Təhsil sektoruna sahibkarlıq subyektlərinin cəlb olunması, təhsil müəssisələrinin özəlləşdirilməsi, qərb təcrübəsinin təhlil və tətbiq olunması prioritet addımlardandır. Uşaq bağçaları şəbəkəsi genişləndirilməli, şəraiti və təminatı yaxşılaşdırılmalı, özəl məktəbəqədər təhsil müəssisələrini dəstəkləmək və təşviq etmək üçün tədbirlər görülməlidir.Ölkənin sosial-iqtisadi inkişaf ehtiyaclarını ödəmək və universitetləri təhsil, tədqiqat və innovasiya mərkəzlərinə çevirmək üçün bilikli və səriştəli

mütəxəssislərin hazırlanmasını asanlaşdıran standartlar hazırlanmalıdır. Təhsilin dəstəklənməsi istiqamətində dövlət tərəfindən aşağıdakı tədbirlər görülməlidir:

Təhsilin keyfiyyətini artırmaq üçün stimullaşdırıcı prosedurlar tətbiqi

Təhsil menecmentinin təkmilləşdirilməsi

Müasir texnologiyaların tətbiqi

Məktəblərin tikintisi və təmiri

Ali təhsil müəssisələri üçün şəhərciklər və texnoloji parklar yaradılması

Məktəbəqədər təhsil müəssisələrinin inkişafı

**Səhiyyənin dəstəklənməsi**

ÜDM-də səhiyyə ayırmalarının payının dinamik şəkildə artırılması üçün mexanizmlərin hazırlanması və bunlardan daha səmərəli istifadə edilməsi dövlət tərəfindən dəstəklənməlidir. İdarəetmədə həddindən artıq mərkəzləşmədən qurtulmaq və icra funksiyalarını tamamilə inzibati funksiyalarla əvəzləmək üçün tədbirlər görülməlidir ki, bu da müxtəlif səviyyələrdə effektiv idarəetməyə kömək edəcək və daha yaxşı koordinasiyaya imkan verəcəkdir.Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində kiçik sahibkarlıq subyektlərinin rolunu artırmaq üçün dövlət tərəfindən aşağıdakı istiqamətlər üzrə tədbirlər həyata keçirilməlidir:

- Ölkəmizin Avropa, ABŞ, Türkiyə və Asiyanın elmi tədqiqat mərkəzləri / qurumları arasında əməkdaşlığı daha da gücləndirmək;
- Özəl klinikaların fəaliyyətə başlamasına dövlət dəstəyinin artırılması;
- Tibbi müəssisələrdə yüksək səviyyəli klinik sınaqların aparılması;
- Sahibkarlıq subyektlərinin tibbi sahədəaraşdırmalara təşviqi
- Səhiyyə müəssisələrinin tikintisi, yenilənməsi və yenidən qurulması
- maddi-texniki infrastrukturunun gücləndirilməsi,
- müasir tibbi avadanlıqlarla təchiz edilməsi

- ardıcıl səhiyyə islahatlarının davam etdirilməsi üçün əlavə tədbirlər görülməsi
- məcburi tibbi sığortaya keçid həyata keçiriləcək və keyfiyyətli tibbi xidmətlərin göstərilməsi
- dərmanların keyfiyyətinin, effektivliyinin və təhlükəsizliyinin artırılması üçün dərmanların vahid məlumat bazasının yaradılması
- Lisenziyasız və qanunla keyfiyyətli dərmanların idxalının qarşısını almaq üçün qətiyyətli addımların atılması
- Dərman idxal edən sahibkarlara güzəştlər

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Sahibkarlıq subyektlərinin fəaliyyətinin təşviq olunması üçün dövlət tərəfindən aşağıdakı istiqamətlərdə tədbirlər görülməlidir:

- Bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi;
- Dövlətin sahibkarlara modernləşmə istiqamətində dəstək göstərməsi;
- iqtisadi islahatlar;
- milli standartlar formalaşdırılmalı
- risklərin azaldılması ilə bağlı olaraq bir sıra məsələlərin təhlili;
- innovasiya fəaliyyətinin inkişafına dəstəyin artırılması və bu sahənintəşkili və tənzimlənmə mexanizminin inkişafı;
- innovasiya fəaliyyəti ilə əlaqədarvahid qanunvercilik bazasının yaradılması;
- innovasiya fəaliyyəti və tədqiqatları ilə məşğul olan müəssisələr üzrə stimullaşdırıcı maliyyə-kredit, vergi-fiskal sistemin və tənzimləyici mexanizmlərin tətbiqi;
- müəssisələrin elm və innovasiya yönümlü fəaliyyətinin, tədbirlərinin davamlı olaraq genişləndirilməsi;
- ölkədə yeni texnologiyalar, innovasiya məhsulları istehsalı fəaliyyətinin dəstəklənməsi;
- dəstək almış kiçik sahibkarlıq subyektlərinin monitorinqi, o cümlədən bölgənin sosial-iqtisadi inkişafına töhfələrin səmərəliliyinin qiymətləndirilməsi;
- gənc sahibkar vergi ödəyicilərinin vergi yükünün azaldılması;
- dəstək almış kiçik sahibkarlıq subyektlərinin monitorinqi, o cümlədən bölgənin sosial-iqtisadi inkişafına töhfələrin səmərəliliyinin qiymətləndirilməsi;

- kiçik sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı zamanı əngəllərin aradan qaldırılması;
- xarici investorları cəlb etmək üçün güzəştlərin olunması.
- Kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafı üçün stimullaşdırıcı tədbirlər görülməsi
- Ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalının təşviqi
- Yüngül və toxuculuq sənayesininkeyfiyyətinin və rəqabətqabiliyyətinin artırılması;
- İKT sektorunun rəqabət qabiliyyətini və ixrac potensialını gücləndirilməsi.
- Təhsilin keyfiyyətini artırmaq üçün stimullaşdırıcı prosedurlar tətbiqi
- ardıcıl səhiyyə islahatlarının davam etdirilməsi üçün əlavə tədbirlər görülməsi

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. Aliyev İsa (2014) “Qeyri-neft sənayesinin inkişaf strategiyası “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası fəaliyyətdədir
2. Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. İxrac icmalı 2021
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi. Azərbaycanda sahibkarlıq rəqəmlərdə 2016
4. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, Kiçik və Orta Sahibkarlığın Xidmət Sahələri: Təkliflər Kataloqu.Bakı - 2018
5. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi, Dövlət Proqramı, Bakı -2016
6. İbrahimovİslam Hacı oğlu (2010),Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məsələləri «Sada» nəşriyyat, Bakı, 248 səh.
7. İmanovƏzizağa Şirinəli oğlu.(2009)“Kiçik sahibkarlıq”.Bakı, «Elm»,368 səh.
8. Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı,Bakı-2017
9. Qeyri neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı,Bakı-2016
10. Məhərrəmov A.M. (2009) “Sahibkarlrq: nəzəriyyədən praktikaya”. Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, , 360 səh.
11. Niftullayev Vaqif Məmmədqulu oğlu (2002)“Sahibkarlığın əsaslan” - Bakı, “Zaman nəşriyyatı”


## İngilis dilində


1. Amit Bouri, Mark Breij, Magatte Diop, Randall Kempner, Bailey Klinger,

Keely Stevenson(2011) “Report on Support to SMEs in Developing Countries Through Financial Intermediaries” page 48

2. Andreas Rauch and Michael Frese (2007) . Let's put the person back into entrepreneurship research: A meta-analysis on the relationship between business owners' personality traits, business creation, and success . p 35
3. André van Stel, Martin Carree (2003). Business Ownership and Sectoral Growth: An Empirical Analysis of 21 OECD Countries. SCALES-paper N200308 . p 33
4. Charlie Karlsson, Christian Friisand Thomas Paulsson (CESIS/JIBS) (2004) Relating entrepreneurship to economic growth.
5. Dana, L.P. and Dana, T.E. (2005) ‘Expanding the scope of methodologies used in entrepreneurship research’, Int. J. Entrepreneurship and Small Business, Vol. 2, No. 1, pp.79–88.
6. David B.Audretsch (2003). Entrepreneurship. A survey of the literature. Luxembourg: Office for Official Publications of the European Communities.p 70
7. Demir Uslu, Y.; Kedikli, E. “The Importance of Entrepreneurship and Innovation Management in Terms of Modern Businesses.” (2019).International Journal of Academic Value Studies, Vol:5, Issue:1 (5th Year Special Issue); pp:1-11(ISSN:2149-8598).
8. Duarte, N., 2004. The role of SMEs for development: a literature review “regions and fiscal federalism”.
9. Dirk De Clercq, Dominic S.K. Lim, Chang Hoon Oh (2013). Individual-Level Resources and New Business Activity: The Contingent Role of Institutional Context. Entrepreneurship Theory and Practice .p 29
10. Enhancing SME access to diversified financing instruments,SME Ministerial Conference,22-23 February 2018 Mexico City

11. Judit Olah , Sandor Kovacs , Zuzana Virglerova , Zoltan Lakner , Maria Kovacova Jozsef Popp (2019). Analysis and Comparison of Economic and Financial Risk Sources in SMEs of the Visegrad Group and Serbia. p 19
12. Marc J. Dollinger Kelley School of Business INDIANA UNIVERSITY(2008).ENTREPRENEURSHIP Strategies and Resources FOURTH EDITION
13. OECD, Strengthening SME capabilities through a sustainable market for business development services in Belarus
14. OECD (2019), Azerbaijan: Driving Diversification through Strengthened Entrepreneurship,OECD Publishing,Paris.
15. Ovidiu StoicaAngela RomanValentina Diana Rusu (2020). The Nexus between Entrepreneurship and Economic Growth; A Comparative analysis on groups of countries. Sustainability ,19
16. Pontus Braunerhjelm (2010) “Entrepreneurship, Innovation and Economic Growth - past experience, current knowledge and policy implications”
17. Small and medium-sized enterprises and decent and productive employment creation,International Labour Conference, 104th Session, 2015
18. SME Statistics: Towards a more systematic statistical measurement of SME behavior. Istanbul, Turkey 3-5 ,June 2004
19. Vinig, T., Kluijver, J. de (2007). "Does Globalization Impact Entrepreneurship? Comparative Study of Country Level Indicators," University of Amsterdam, Netherlands .

**Internet resursları**

20. www.stat.gov.az/source/entrepreneurship/#, 2020
21. www.economy.gov.az , 2020
22. https://www.taxes.gov.az/az/page/ar-vergi-mecellesi, 2020
23. http://www.e-qanun.az/ , 2020
24. http://smb.gov.az,2020

# ƏLAVƏLƏR

**Əlavə 1.**

**Cədvəl 4: Əsas kapitala yönəldilən xarici investisiya**

| | |
|---|---|
| Mədənçıxarma sənayesi(mln.manat) | 3,443.8 |
| Emal sənayesi(mln.manat) | 798.0 |
| Qida məhsullarının istehsalı(mln.manat) | 13.0 |
| İçki istehsalı(mln.manat) | 0.0 |
| Tütün məmulatlarının istehsalı(mln.manat) | 0.0 |
| Toxuculuq sənayesi(mln.manat) | 0.0 |
| Geyim istehsalı(mln.manat) | 0.0 |
| Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı(mln.manat) | 0.0 |
| Ağac emalı və ağacdan məmulatların istehsalı(mln.manat) | 0.0 |
| Kağız və karton istehsalı(mln.manat) | 0.0 |
| Poliqrafiya fəaliyyəti(mln.manat) | 0.0 |
| Neft məhsullarının istehsalı(mln.manat) | 0.2 |
| Kimya sənayesi(mln.manat) | 0.0 |
| Əczaçılıq məhsullarının istehsalı(mln.manat) | 0.0 |
| Rezin və plastik kütlə məmulatlarının istehsalı(mln.manat) | 778.0 |
| Tikinti materiallarının istehsalı(mln.manat) | 0.0 |
| Metallurgiya sənayesi(mln.manat) | 0.0 |
| Maşın və avadanlıqlardan başqa hazır metal məmulatlarının istehsalı(mln.manat) | 0.0 |
| Kompüter və digər elektron avadanlıqların istehsalı(mln.manat) | 0.0 |
| Elektrik avadanlıqlarının istehsalı(mln.manat) | 0.0 |
| Maşın və avadanlıqların istehsalı(mln.manat) | 0.0 |
| Avtomobil və qoşquların istehsalı(mln.manat) | 0.0 |
| Sair nəqliyyat vasitələrinin istehsalı(mln.manat) | 0.0 |
| Mebellərin istehsalı(mln.manat) | 0.0 |
| Sair sənaye məhsullarının istehsalı(mln.manat) | 0.0 |
| Maşın və avadanlıqların quraşdırılması və təmiri(mln.manat) | 6.8 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı(mln.manat) | 0.4 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı(mln.manat) | 169.1 |

**Mənbə:**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur

**Əlavə 2.**

**Cədvəl 7: 2010-2019 Kiçik sahibkarlığın məhsul buraxılışı (nominal)**

| Kiçik sahibkarlıq | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | Emal sənayesi | Tikinti | Ticarət, nəqliyyat vasitələrinin təmiri | Nəqliyyat və anbar təsərrüfatı | Turistlərin yerləşməsi və ictimai iaşə |
|---|---|---|---|---|---|---|
| 2010 | 60.2 | 386.8 | 807.7 | 1,426.30 | 489 | 142.3 |
| 2011 | 80.7 | 418.5 | 547.5 | 1,666.00 | 536.7 | 324.7 |
| 2012 | 93.1 | 408.9 | 974.9 | 1,844.60 | 633.7 | 397.6 |
| 2013 | 127.1 | 505.6 | 1,422.90 | 1,985.80 | 684.7 | 465 |
| 2014 | 251.6 | 654.7 | 416.3 | 2,209.20 | 717.3 | 550.7 |
| 2015 | 62,187.30 | 316,407.80 | 171,164.20 | 2,447,286.50 | 605,458.40 | 614,471.00 |
| 2016 | 53,251.00 | 285,447.20 | 71,376.30 | 2,625,326.70 | 610,659.10 | 665,565.40 |
| 2017 | 61,917.40 | 280,898.50 | 87,782.60 | 2,651,785.70 | 627,786.40 | 768,590.00 |
| 2018 | 110,806.30 | 429,252.50 | 543,256.10 | 262,216.70 | 117,345.50 | 75,646.00 |
| 2019 | 126,174.70 | 480,062.90 | 477,862.70 | 279,500.00 | 148,881.30 | 74,947.60 |

| Kiçik sahibkarlıq | İnformasiya və rabitə | Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | Təhsil | Əhaliyə səhiyyə və sosial xidmətlər | Digər sahələrdə xidmətlər | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| 2010 | 16.3 | 8.7 | 2 | 3.9 | 492.3 | 3,835.50 |
| 2011 | 29.6 | 11.4 | 3 | 3.5 | 586.9 | 4,208.50 |
| 2012 | 62.5 | 13.1 | 3 | 8.6 | 660.6 | 5,100.60 |
| 2013 | 91.8 | 18 | 4.9 | 12.5 | 754.3 | 6,072.60 |
| 2014 | 131.8 | 32.4 | 7.3 | 21.3 | 959.1 | 5,951.70 |
| 2015 | 17,103.90 | 10,735.70 | 5,558.30 | 11,688.10 | 456,321.10 | 4,718,382.30 |
| 2016 | 19,967.70 | 15,365.80 | 7,094.40 | 14,331.40 | 297,742.50 | 4,666,127.50 |
| 2017 | 20,996.70 | 16,412.40 | 8,024.20 | 16,005.10 | 344,523.30 | 4,884,722.30 |
| 2018 | 118,358.10 | 106,212.00 | 18,770.90 | 26,559.20 | 473,560.80 | 2,281,984.10 |
| 2019 | 131,961.70 | 98,403.70 | 20,812.50 | 36,234.20 | 678,942.30 | 2,553,783.60 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur

## Cədvəllərin siyahısı

**Cədvəl 1 :** Qeyri- neft məhsulları ixrac üzrə........................................................................32
**Cədvəl 2** : Fəaliyyətdə olan sahibkarlıq subyektlərinin ümumi sayı...............................................37
**Cədvəl 3 :** Sahibkarlıq subyektlərinin məhsul buraxılışı.................................................................42
**Cədvəl 4 :** Əsas kapitala yönəldilən xarici investisiya....................................................................67
**Cədvəl 5 :** Qeyri-neft sektoru üzrə Ümumi daxili məhsul (nominal)..............................................53
**Cədvəl 6 :** Qeyri-neft sektoru üzrə ÜDM və Kiçik sahibkarlığın məhsul buraxılışı real göstəricilərlə.......................................................................................................................54
**Cədvəl 7:** 2010-2019 Kiçik sahibkarlığın məhsul buraxılışı (nominal)..........................................68

## Qrafiklərin siyahısı

**Qrafik 1:** ÜDM-in artım sürəti.......................................................................................31
**Qrafik 2:** Kiçik sahibkarlıq subyektlərində işçilərin sayı.................................................................37
**Qrafik 3:**Sahibkarlıq subyektlərinin say dinamikası.........................................................................38
**Qrafik 4:**Fəaliyyətdə olan kiçik sahibkarlıq subyektlərinin ümumi sayı........................................39

## Diaqramların siyahısı

**Diaqram 1:** İxrac ölkələri…………………………………………………......…...…………..33
**Diaqram 2:** Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ümumi sayı..........................................................................................................................36
**Diaqram 3:** Sahibkarlıq subyektlərinin məhsul buraxılışı.............................................................39
**Diaqram 4:** Fəaliyyətdə olan sahibkarlıq subyektlərinin ümumi sayı............................................40